www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 12 sentyabr 2017-ci il Çərşənbə axşamı № 187 (6801) Qiyməti 60 qəpik

**Xəbər**

## Azərbaycanlı dünya çempionu Rusiyada qətlə yetirildi

yazısı səh.2-də

**Gündəm**

### "Xanımlara pulsuz qəlyan", kişilərə erotik-şou və şəbəkə müdafiəsi - "26-lar"ın iç üzü ifşa olunur



Qoşa "Gelandevagen"li sahibkarların "şəbəkə proletariatı" tərəfindən müdafiə edilməsinin absurd yönləri

yazısı səh.3-də

### "Bu, Lapşinə ömrü boyu dərs olacaq" - Yevda Abramov

yazısı səh.4-də

### SOCAR rəsmisi məşhur oliqarxın zavodunun satın alınmasından danışdı

yazısı səh.6-da

### Qərbin və Rusiyanın Azərbaycanda 2018 "hazırlıqları"...

yazısı səh.7-də

### Azərbaycan-İsrail əlaqələrində düşmənə şok yaşadan gəlişmə

yazısı səh.9-da

### Təhsil naziri test imtahanlarının ləğvi məsələsinə aydınlıq gətirdi

yazısı səh.2-də

### "Azərsu"nun müşaviri kefləndi, böyük bir təsərrüfatı susuz qoydu - sensasion iddia

yazısı səh.10-da

### Elektriklə işləyən avtomobil dövrü gəlir

yazısı səh.12-də

### Süni körpə qidaları uşaqlar üçün təhlükəlidirmi...

yazısı səh.10-da

### İpoteka kreditini gecikdirənlərin evi məhkəməsiz müsadirə oluna bilər

yazısı səh.14-də

### "Çelsi"-"Qarabağ" qarşılaşması: əlavə sözə ehtiyac varmı?

yazısı səh.15-də

**Azərbaycanın 11 sentyabrı - prezident İlham Əliyevdən üç mühüm qərar**

# GENERALLARIN GÖRÜŞÜ - DÜNYANIN TALEYİ BAKIDA HƏLL OLUNUR

Mehman Əliyev barəsində həbs-qətimkan tədbirinin dəyişdirilməsi, Qarabağa qanunsuz səfər etmiş Aleksandr Lapşinin əfvi və Nardaran məhbuslarının 14 nəfərinin cəzalarının çəkilməmiş hissəsindən azad edilməsi prezident İlham Əliyevin ölkədə barışa və vətəndaş cəmiyyətinə yönəlik mesajı kimi qiymətləndirilir; bu, həm də anti-Azərbaycan qüvvələrə verilmiş tutarlı cavabdır...




yazısı səh.5-də

## Kreml İrəvanı Bakı ilə hədələdi - "Bu addımı atsanız..."

Ermənistanın Putin layihələrindən çıxmaq təşəbbüsünə Moskvadan sərt reaksiya gəldi: "Türkiyə və Azərbaycanla üz-üzə qalacaqsınız, əgər..."; düşmən ölkədə yeni etiraz dalğası başlayır; erməni müxalifətçi: "Sərkisyanın yeri həbsxanadır"

yazısı səh.8-də



### Mehman Əliyev gələcək planlarını açıqladı: "...Korrektələr olacaq"

yazısı səh.4-də



*Elçin Mirzəbəyli:*

### "İslahatlar dərinləşdikcə, "beşinci kolon"ların əhatə dairəsi daralacaq"

yazısı səh.7-də



*"Əli Həsənov:*

### "Akif Əli məsuliyyət hissini itirib"

yazısı səh.2-də

YENİ MÜSAVAT
N 187 (6801) 12 sentyabr 2017


Anar

# Yazıçılar prezidentə təşəkkür etdilər

**Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar, Azərbaycan Yazıçılar Birliyinin katibi Çingiz Abdullayev, Üzeyir Hacıbəyli adına Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəyli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkür məktubu yazıb.**

"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə

Hörmətli Prezidentimiz!

«Turan» informasiya agentliyinin rəhbəri Mehman Əliyevin işi ilə əlaqədar Sizə müraciətə biz də imza atmışdıq. Bizim heç birimiz Mehman Əliyevlə şəxsən tanış deyilik və onun fəaliyyəti ilə bağlı geniş məlumatımız yoxdur. Amma bir qələm əhlinə qarşı qanun və ədalət çərçivəsində hərəkət edilməsi üçün sizdən işi nəzarət altına almağınızı xahiş etmişdik. Bunun ölkəmizin beynəlxalq nüfuzu üçün də əhəmiyyətli olduğunu düşünürdük. Təbii ki, biz Sizə inanırdıq və atdığınız müdrik və ədalətli addım bunu bir daha təsdiq etdi.

Buna görə sizə ürəkdən təşəkkür edirik və bildiririk ki, həmişə olduğu kimi, Azərbaycan ziyalıları dövlətimizin və şəxsən Sizin siyasətinizi dəstəkləyir".

# Təhsil naziri test imtahanlarının ləğvi məsələsinə aydınlıq gətirdi

**"Azərbaycanda 2 ildən sonra qəbul və buraxılış imtahanlarının yeni formatda keçirilməsi ilə bağlı görülən işlər Təhsil Nazirliyi ilə Dövlət İmtahan Mərkəzinin birgə layihəsidir".**

"Report" xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında təhsil naziri Mikayıl Cabbarov deyib.

Nazirin sözlərinə görə, bu birgə işin zərurəti Azərbaycanın məktəblərində 9 il öncə yeni məzmun proqramının (kurikulum) tətbiqi ilə bağlıdır:

"Eyni zamanda layihənin əsas məqsədi gənclərin, məktəb məzunlarının bilik və bacarıqlarının qiymətləndirilməsi prosesini daha da təkmilləşdirmək, asanlaşdırmaq və şəffaf etməkdən ibarətdir. Bu istiqamətdə işlər daim həyata keçirilir".

M.Cabbarov bildirib ki, sentyabrın 9-da Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, təhsil nazirinin müavini, DİM-in Direktorlar Şurasının üzvü Ceyhun Bayramov və digər təhsil ekspertlərinin iştirakı ilə işçi görüşlər keçirilib: "Müvafiq olaraq ictimaiyyət bu prosesin mərhələlərindən və təklif olunan formata dair məlumatlı olacaq".

# Masazırda 2 gün su olmayacaq

**Masazır qəsəbəsində suyun verilməsində məhdudiyyət yaranacaq. "Azərsu" ASC-nin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, yeni çəkilmiş 426 mm diametrli su xəttinin magistral kəmərə birləşdirilməsi ilə əlaqədar sentyabrın 11-də 24 saat müddətində Abşeron rayonunun Masazır qəsəbəsinin bir hissəsinə içməli suyun verilməsində məhdudiyyətlər olacaq.**

Yaranmış narahatlıqla əlaqədar "Azərsu" ASC abonentlərdən üzr istəyir.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**


# "Akif Əli məsuliyyət hissini itirib" - Əli Həsənov

**"Dövlət orqanlarının mətbuat xidmətlərinin rəhbərləri və əməkdaşları işlədikləri qurumların kütləvi informasiya vasitələri ilə əlaqələrinin tənzimlənməsinə, həmin təşkilatların fəaliyyəti haqqında ictimai rəyin formalaşmasına bilavasitə məsul olan şəxslərdir. Onlar təmsil etdikləri qurumların media ilə münasibətlərini sağlam zəmində, işgüzarlıq, qarşılıqlı hörmət və səmərəli əməkdaşlıq prinsipləri üzərində qurmalı, öz statuslarına uyğun davranmalı, açıqlamaları və öz fikirlərində etik çərçivəni daim gözləməlidirlər. Mətbuat xidmətinin əməkdaşı həmişə diqqət mərkəzində, sanki kamera və ya mikrofon qarşısında olduğunu unutmamalı və özünü də buna adekvat aparmalıdır".**



Bu sözləri APA-ya açıqlamasında Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri Akif Əlinin tanınmış alim Lütfi Zadə haqqında xoşagəlməz fikirləri ilə bağlı deyib.

**Əli Həsənov** bildirib ki, Lütfi Zadə təkcə tanınmış alim deyil, həm də bizim dünyaca məşhur soydaşımızdır və Azərbaycan Respublikasının "Dostluq" ordeni ilə təltif olunub.

"O, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qəbul edilib, dövlət başçımızın şəxsiyyətinə dərin hörmət bəslədiyi, xalqımızın qürur duyduğu şəxs olub. Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri statusunu daşıyan şəxsin məsuliyyət hissini itirərək, emosiyalara qapılaraq görkəmli alim haqqında belə ifadələr işlətməsi yolverilməzdir", - deyə prezidentin köməkçisi qeyd edib.

Qeyd edək ki, bir neçə gün öncə Nazirlər Kabinetinin mətbuat xidmətini rəhbəri Akif Əlinin tanınmış alim Lütfi Zadə haqqında xoşagəlməz fikirləri cəmiyyətdə ciddi mənfi reaksiya doğurdu. Akif Əli istər mediada, istərsə də sosial şəbəkələrdə qınandıqdan sonra öz fikirlərinə görə üzr istəmək məcburiyyətində qaldı.

Dünya şöhrətli azərbaycanlı alim Lütfi Zadə sentyabrın 6-da ABŞ-da vəfat edib.



# Binəqədi şosesində hərəkət 2 günlük məhdudlaşdırılır

**Yeraltı kommunikasiya xətlərinin dəyişdirilməsi ilə əlaqədar olaraq sentyabr ayının 12-dən 13-nə keçən gecədən etibarən Binəqədi şosesinin Binəqədi-Biləcəri yolu (4-cü qapı küç.) ilə kəsişməsindən Biləcəri-Baksol yolunun kəsişməsinədək olan hissəsində 2 gün ərzində avtonəqliyyat vasitələrinin hərəkəti tam olaraq dayandırılacaq.**

Bu barədə "APA-Economics"ə "Azəravtoyol" ASC-dən məlumat verilib.

"Göstərilən müddət ərzində sürücülər alternativ olaraq Biləcəri-Baksol, Binəqədi-Biləcəri (4-cü qapı küç.), Xırdalan-Binəqədi-Balaxanı, Binəqədi-Mehdiabad avtomobil yollarından, həmçinin Binəqədi və Biləcəri qəsəbələrinin daxili yollarından istifadə edə bilərlər", - deyə məlumatda vurğulanıb.



# Azərbaycanlı dünya çempionu Rusiyada öldürüldü

**Rusiyada milli diasporlarımızdan birinin rəhbəri, kikboks üzrə dünya çempionu Ramil Caniyev güllələnib. Musavat.com Qaynarinfo-ya istinadən xəbər verir ki, bu barədə Rusiyanın znak.com saytına istintaq idarəsinin Kurçatov rayonu üzrə istintaq şöbəsinin rəhbəri Yevgeni Mitroxin məlumat verib. İstintaq zamanı məlum olub ki, qatil Caniyevi Çelyabinsk şəhərinin şimal qərbində yerləşən Ostrovski küçəsində, 7 nömrəli binanın girişində 1 saata yaxın gözləyib və evdən çıxan anda güllələyib.**

Ağır vəziyyətdə xəstəxanaya çatdırılan 25 yaşlı R.Caniyevi xilas etmək mümkün olmayıb.

Faktla bağlı cinayət işi açılıb.

Hadisənin münaqişə zəminində baş verdiyi iddia edilir. Cinayəti törətməkdə şübhəli bilinən 26 yaşlı Eldəniz Bağırov axtarılır.

Qeyd edək ki, kikboksinq üzrə beynəlxalq dərəcəli hakim olan olan Ramil Caniyev 2015-ci ildə dünya çempionu olub.

# Bakı-Tiflis-Qars dəmir yolu xəttinin rəsmi açılışı oktyabrın 28-də olacaq

**Bakı-Tiflis-Qars (BTQ) dəmir yolu xəttinin rəsmi açılış mərasiminin oktyabrın 28-də keçirilməsi gözlənilir. Virtualaz.org-un məlumatına görə, bunu jurnalistlərə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov deyib. O bildirib ki, hər hansı texniki problem yaranmasa, Bakı-Tiflis-Qars dəmir yolu xəttinin rəsmi açılış mərasimi oktyabrın sonlarında keçiriləcək. Onun sözlərinə görə, açılış mərasiminin oktyabrın 28-də keçirilməsi planlaşdırılır.**

# Aldadılmış iş adamları "Dələduz Qədim Ədilov cəzalandırılsın!" şüarı ilə aksiya keçirəcək

**Tikinti bazarında, özəlliklə taxta-şalban biznesi ilə məşğul olan bir qrup sahibkar baş prokuror Zakir Qaralova, ölkə rəhbərliyinə müraciət ünvanlayıblar. Surəti redaksiyamıza göndərilən, sahibkarlardan bir qisminin - Məmməd Cəfərov, Natiq Hümbətov, Rövşən Məhərrəmov və Xaləddin Yusibovun imzaladıqları müraciətdə deyilir:**

- Sizə 3 ildən artıqdır məşhur dələduz Qədim Ədilov tərəfindən aldadılaraq bütün pulları, əmlakları əlindən alınmış, şikayətləri neçə illərdir laqeyd məmurların masalarından o tərəfə keçməyən, hüquqları tapdalanmış və son çarə olaraq Baş Prokurorluq və Prezident Aparatı binası qarşısında etiraz aksiyaları keçirmək istəyən vətəndaşlar olaraq müraciət edirik. Diqqətinizə çatdırmaq istəyirik ki, Qədim Ədilov bir mənzili 2-3 adama satan mənzil dələduzlarını çox-çox arxada qoyub. O, 2014-cü ildə hər bir vaqon taxta məhsulunu 8-10 adama "sataraq" pulları mənimsəyib və nəticədə heç kəsə heç bir mal verməmdən bizlərin hər birinə 100 min dollardan 200 min dollara qədər pul "atıb". İnşaat malları bazarında, sadəcə, 7 nəfərin 750 min dollar, ümumilikdə 10-15 nəfərin bizdə olan məlumata görə 1 milyon 800 min dollar pulu dələduz Qədim Ədilov tərəfindən mənimsənilib".

**Müraciət müəllifləri yazırlar ki, 2015-ci il oktyabrın 10-da şikayətləri əsasında Q.Ədilov barəsində CM-in 178.2.2 və 178.3.2 maddələri ilə 150066098 nömrəli cinayət işi başlanıb:** "Sonradan dələduzun özü kimi dələduz məsləhətçiləri onun adını "MTN işi" üzrə "zərərçəkmişlər"siyahısına saldırdılar. Bundan sonra o, prokurorluqdakı havadarları vasitəsilə cinayət işinin xitamına nail oldu. Hazırda Qədim Ədilov öz dələduzluq əməllərini davam etdirərək, yeni-yeni vətəndaşların pullarını ələ keçirir və ictimai yerlərdə «Mən prokurorluq işçilərinə pul ödəyirəm, mənə heç kəs heç nə edə bilməz» deyə lovğalanır. Bizim çoxsaylı şikayət ərizələrimiz lazımi yerlərə çatmır. Prokurorluqda bizi heç cürə baş prokurorun qəbuluna buraxmırlar. Nəticədə Qədim Ədilov kimlərə arxalanırsa, bizi o şəxslər qarşılayıb məntiqsiz cavablarla yola salırlar. Ona görə də baş prokurordan xahiş edirik ki, bizi qəbul edib şikayətimizi dinləsin. Son tikə çörəkləri dələduz Qədim tərəfindən əllərindən alınmış oğul- uşağımızı, nəvələrimizi də götürüb əvvəl Baş Prokurorluq, sonra da Prezident Aparatı qarşısında "Dələduz Qədim Ədilov cəzalandırılsın!", "Dələduzlar həbsə!" şüarları və plakatları ilə oturaq aksiya keçirmək məcburiyyəti ilə üz-üzə qalmışıq. Ümidvarıq ki, bizi belə tədbirlərə əl atmaq məcburiyyətində qoymayacaqsınız!"

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 187 (6801) 12 sentyabr 2017

# "Xanımlara pulsuz qəlyan", kişilərə erotik-şou və şəbəkə müdafiəsi - "26-lar"ın iç üzü ifşa olunur

## Qoşa "Gelandevagen"li sahibkarların "şəbəkə proletariatı" tərəfindən müdafiə edilməsinin absurd yönləri

**Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov bəlkə də 40 ilin başında bir xeyirxah iş görmüşdü, amma yenə də tənqid, hətta təhqir olundu.**



Həmin yerin köhnə görkəmi



İndiki. Tarixi abidəni «peredelka» ediblər



Əvvəllər Natavan klubu olan yerin indiki durumu

Ancaq baxaq görək, BŞİH başçısının şəxsən təşrif buyuraraq bağladığı "26-lar" kafesinin sahibləri kimdirlər və xalqa nə təklif edirlər? Nəyə görə ölkədə onlarla ticarət, xidmət, iaşə müəssisələri bağlana bilər, amma onlar toxunulmaz qalmalıdır?

Hadisə baş verən gün kafe sahiblərindən birinin kimliyi açılandı, məlum oldu ki, o, ali məktəbdə hüquq dərsi verən Ərəstun Qasımovun oğlu Əliyar Qasımovdur.

Sonra qəribə bir hadisə baş verdi və heç kəs bunun üstünə getmədi. Mediada xəbərlər çıxdı ki, hüquq professoru Ərəstun Qasımov saytlara o adda oğlu olmadığını bildirib.

Daha sonra xəbər çıxdı ki, professor Qasımov bizneslə məşğul olan Əliyar adlı oğlunun olduğunu danmır, ancaq onun biznes fəaliyyətindən xəbərsizdir. Başqa sözlə, professor Qasımov oğlunun adına olan biznes strukturunun gerçək sahibi olmadığını bəyan etdi.









Ola bilər ki, belədir və qısa müddət ərzində kafe-restoran biznesində böyük uğurlar qazanmış şəxslərin ilkin kapitalına haram, çirkli pullar qarışmayıb. Bəs bu qədər gənc yaşda olan gənclərdə o qədər böyük pullar hardandır ki, onlar eyni, qızılı rəngdə "Mersedes Gelandevagen" avtomobili tədarük ediblər? Özü də avtomobillərin dövlət nömrə nişanı göstərir ki, gənclər bu rəqəmləri xüsusi önəm verərək, böyük pul-para xərcləyərək alıblar.

Bu məsələdə qəribə olan detallardan biri də başqa vaxt "bahalı avtomobillərdə ştüyən harın gənclər"i ittiham edən, onların lüks həyat tərzini pisləyən şəxslərin birdən-birə sosial şəbəkədə onlara qahmar çıxması, lüks kafe-restoranın bağlanmasını az qala milli faciəyə çevrimələridir. Bu nə pəhriz, bu nə turşu?

Əksinə, prinsipcə, sosial şəbəkədəki haqq-ədalət tərəfdarları "harın gənclər"dən ikisinin "ifşa olunması"ndan məmnunluq duymalı və "yaxşı ki, indiyədək onların "Gelandevagen"lərinin təkərlərinin altında qalmamışıq" kimi şərhlər yazmalıydılar.

Bu qalmaqalın bir incə, məhrəm yanı da var. Bu da sözügedən kafenin önündə **"HƏR GÜN XANIMLARA QƏLYAN PULSUZ"** elanının qoyulmasıdır. Nədənsə çoxları bu xüsusata da diqqət yetirmədi.

Ancaq bu elanın mahiyyətcə nə olduğunu çılpaqlığı ilə demək lazımdır. Bu, fahi-



İCRA MÜQAVİLƏSİ №01

"14" 3 2017

Bakı şəhəri

Bir tərəfdən Azərbaycan Respublikasının qanunları və öz nizamnaməsi əsasında fəaliyyət göstərən Məmmədov Ramin Ruslan oğlu (bundan sonra "İcarəçi" adlanacaq) və digər tərəfdən Azərbaycan Respublikasının qanunları əsasında fəaliyyət göstərən Azərbaycan Yazıçılar Birliyi, Birliyin katibi Çingiz Abdullayev şəxsində (bundan sonra "İcarəyəverən" adlanacaq) aşağıdakı şərtlər əsasında bu müqaviləni (bundan sonra "Müqavilə" adlanacaq) bağladılar.

1. Müqavilənin predmeti

Müqaviləyə uyğun olaraq icarəyəverən icarəyə verir, icarəçi isə Bakı şəhəri, Səbail rayonu, Xaqani küçəsində yerləşən 53 saylı binanın birinci mərtəbəsində Birliyə məxsus, Xaqani küçəsinə baxan 230 kv.m. qeyri-yaşayış sahəsini icarəyə götürür.

Sahə icarəçiyə istifadə edilməyə verilir.

İcarəyəverən icarə Müqaviləsi imzalandığı gündən 3 gün müddətində sahəni təhvil-təslim aktına əsasən (Əlavə №1) "İcarəçi"yə təhvil verir. Əlavə №1 hazırkı Müqavilənin tərkib hissəsi sayılır.

2. Müqavilənin müddəti

2.1. Hazırki Müqavilə imzalandığı gündən qüvvəyə minir. İcarə müddəti İcarəyəverən tərəfindən sahənin təhvil-təslim aktına (Əlavə №1) əsas[ən] İcarəyə təhvil verildiyi gündən hesablanır və 2,6 il müddətində qüvvədədir.

2.2. Əgər Müqavilənin bitməsinə 1 (bir) ay qalmış İcarəyəverən və ya İcarə[çi] Müqaviləyə xitam vermək niyyətini bildirmirsə, müqavilə eyni müddə[tə] uzadılmış hesab olunur. Bu halda hazırki Müqavilənin bütün şərtləri qüvvə[də] qalır.

3. İcarə haqqının miqdarı və Müqavilə üzrə hesablaşma.

3.1. Müqavilənin şərtlərinə əsasən hər ay 8000 (səkkiz min) manat təyin olunur.

3.2. İcarə haqqı növbəti ay üçün hər ayın 25-dən gec olmayaraq İcarəçi tərəfin[dən] ödənilir.

3.3. Beynəlxalq danışıqların haqqını İcarəçi hesab üzrə ödəyir, bu da D[...] tərəfindən mütləq təstiq olunmalıdır.

3.4. İşıq haqqını və digər kommunal xərcləri İcarəçi ödəyir.



İcarəyəverən

Azərbaycan Yazıçılar Birliyi
AZ0000, Bakı ş., Xaqani küç., 53
VÖEN: 1700401281
Dövlət Xəzinədarlıq Agentliyi
Kod: 210005
VÖEN: 1401555071
M/h: AZ41NABZ01360100000000003944
SWIFT BIK. STREAZ22
9 saylı Xəzinədarlıq İdarəsi
H/h: AZ67CTRE00000000000002728301

Çingiz Abdullayev

Azərbaycan Yazıçılar Birliyinin katibi

şəliyin təbliğatıdır, yüngül əxlaqlı qadınların kafenin daimi müştərisinə çevrilmələrinə sövq etməkdir, açıq təşviqdir. Aydın məsələdir ki, o cür qadınlar bir kafedə daimi müştəriyə çevriləndən sonra oranın gənc, macəra axtaran kişi müştəriləri də artacaq.

Kimsə deyə bilər ki, xanımların qəlyan çəkməsində nə ayıb iş var ki? Belə fikirləşənlər və deyənlər hansı ölkədə yaşadıqlarını unutmasınlar. Qadınların yarıdan çoxunun tütün məhsulları çəkdiyi ölkələrdə belə *(məsələn, Rusiya, Ukrayna, Türkiyə)* qəlyan çəkən qadına hələm-hələm rast gəlmək olmur.

Bundan başqa, aydın oldu ki, həmin iaşə müəssisəsində erotik şoular da nümayiş olunurmuş və bu da kafe sahiblərinin hansı industriya üzərində pul qazandıqlarının göstəricisidir. Başqa vaxt mənəviyyatdan, dindən, imandan danışan adamların "xanımlara pulsuz qəlyan" təklif edənləri, kişilərə erotik şou göstərənləri müdafiə etməsi absurddur.

Bu şəbəkəyə aid "Hollywood" adlı restoranı isə *(Badamdarda yerləşir)* bir çoxları "gey-klub" kimi təqdim edirlər. Söhbət "Hollywood cinema club" şəbəkəsinin Badamdar 77 ünvanında yerləşən klubundan gedir.

Həmin ünvanda yaşayan sakinlər yerli televiziyalara və media quruluşlarına deyirlər ki, kluba gələnlər əsasən cinsi azlıqların nümayəndələridir. İddialara görə, klub "cinema" adı altında fəaliyyət göstərsə də, əslində içəridə baş verən gizli məqamlar da var.

Belə bir klubun yaşayış məntəqələrinin yaxınlığında fəaliyyət göstərməsi isə insanları çox narahat edir.

Klubun sahibi Əliyar Qasımov "Xəzər" televiziyasına deyib ki, onlar bütün müştərilərə eyni münasibət göstərirlər. Yəni kimsə xarakterinə görə kluba girməyə qadağa qoya bilməzlər.

İddialara görə, "Hollywood cinema club" əslində "elitar geylərin" yığışdığı gizli "gey-klubd"dur". Bu halda ortaya bu gerçəklik çıxır: pulsuz qəlyanlarla qadınları cəlb etməyə çalışan, gizli "gey-klub" quran hüquq professorunun uşaqlarının əməllərinə paytaxt meri "dur" deyibsə, onu bu məsələdə təhqir yox, təqdir etmək lazımdır.

Musavat.com-un müxbiri bu yazını hazırlayarkən "26-lar"ın yerləşdiyi tarixi binanın əvvəlki fotosunu da əldə edib. Əski və yeni fotolardan görünənsə budur ki, bu qalmaqallı kafe və biznesin sahibləri tarixi binanı öz ağılları ilə "peredelka" ediblər. Gecə klubunun yerləşdiyi "Natəvan" klubunun da əvvəlki və indiki hallarını fotolarla müqayisə etmək imkanlarınız var.

Məsələ ilə bağlı mediada tirajlanan yalanlardan biri də yazıçı Çingiz Abdullayevin "26-lar" kafesinin icarədarları ilə müqavilənin olmaması ilə bağlı dedikləridir. Qeyd edək ki, xalq yazıçısı kafe bağlanan gün və onun ertəsi günü bu məsələyə dair olduqca hiddətli, emosional açıqlama verməmişdi. Məlum olub ki, icarədar Ramil Ruslan oğlu Məmmədovla icarə müqaviləsini imzalayan şəxs məhz yazıçı Çingiz Abdullayevdir.

Beləliklə, yazıçının nədən emosional reaksiya verməsinin səbəbi aydın olur.

Bu sözləri yazmaqda məqsəd sözügedən kafenin bağlanmasına haqq qazandırmaq deyil, bu, BŞİH-in, hüquq-mühafizə orqanlarının işidir. Bizim dediyimiz odur ki, heç kimi kor-koranə müdafiə etmək, bundan ötrü yaxa yırtmaq olmaz. Əvvəlcə buraxaq, görək, onlar özlərini necə müdafiə edirlər, edə bilirlərmi?

❑ **Musavat.com**







**Avqustun 24-də vergidən yayınmaqda suçlanaraq həbs olunan "Turan" informasiya agentliyinin baş direktoru Mehman Əliyev sentyabrın 11-də saat 13.00 radələrində Yasamal Rayon Məhkəməsindən azadlığa buraxılıb. Onun həbsi ilə bağlı prezident İlham Əliyevə çoxsaylı müraciətlər ünvanlanmışdı. Mehman Əliyev özü də ölkə prezidentinə müraciət yazmışdı.**



# Prezident tövsiyə etdi, baş redaktor azadlığa buraxıldı

## Həbsdən azad edilən Mehman Əliyev gələcək planlarını açıqladı: "Bu, müəyyən bir dönüşdür, müəyyən korrektələr olacaq"

*Mediada gedən xəbərlərə görə, Qazaxıstandan qayıdan Azərbaycan prezidenti bu müraciətə reaksiya verərək, prokuror-məhkəmə orqanlarına seçilmiş qətimkan tədbirinin dəyişdirilməsini və vergidən yayınmada ittiham olunan M.Əliyevin təcridxanadan azad edilməsini tövsiyə edib.*

*M.Əliyev musavat.com-a müsahibəsində azadlığa çıxması, həbs dönəmi və bundan sonrakı planları barədə danışdı. Müsahibimiz öncə azadlığa çıxması ilə bağlı situasiyanı dəyərləndirdi:*

- Mən bu həbsə hazır idim. Uzun və ya qısamüddətli olacaqdı, fərqi yox idi. Hazır idim. Amma ümidimi bağlamırdım ki, tezliklə çıxacam. Özümü hazırlamışdım ki, uzun müddət qalacam.

***- Bu sabah etibarilə mediada xəbər yayıldı ki, İlham Əliyev müvafiq orqanlara Mehman Əliyev barəsindəki həbs qərarını dəyişdirməyi tövsiyə edib. Bundan sonra da media cameəsində ümidlər artdı ki, siz sentyabrın 11-də məhkəmədən azadlığa buraxılacaqsız. Bəs sizin özünüz azadlığa buraxılacağınızı nə vaxt öyrəndiz?***

- Sözün düzü, keçən həftə mənimlə Ombudsman Aparatından gəlib görüşmüşdülər. O zaman mənə dedilər ki, biz əlimizdən gələn hər şeyi edəcəyik ki, qısa müddətdə siz azadlığa çıxasız, barənizdəki həbs-qətimkan tədbiri dəyişsin. Bu, mənimçün siqnal oldu ki, nələrsə dəyişə bilər. Ondan sonra da mənim prezidentə müraciətim oldu. Barəmdəki həbs-qətimkan tədbirinin dəyişdirilməsi ilə bağlı müraciət etmişdim. Məhkəməmdə də məktub yazmışdım bununla bağlı. Bundan sonra da bu proses başladı.



***- Mehman bəy, çox nadir hallarda Azərbaycanda siyasi motivlərlə həbs olunan şəxs qısa müddətdə azadlığa buraxılır. Siz bu mənada nadir nümunə təşkil edirsiz. Sizlə bağlı özəl münasibətin səbəbi nə oldu?***

- Əslində mənə deyildi ki, daxildə də, xaricdə də mənimlə bağlı çox böyük dəstək oldu. Çoxları üçün belə reaksiya bəlkə də gözlənilməz idi. Mənə olan münasibət öz təsirini göstərdi.

***- İlk dəfədir ki, məhbəs həyatı yaşadız. Bu sürəc necə keçdi, nələr yaşadız? Türmə həyatı sizə nə öyrətdi?***

- Mən türmədəki insanlarla söhbət edəndə sanki müsahibə götürürdüm. Kim nəyə görə həbs olunub, taleyi necə gətirib, saxlanma şəraiti, ordakı şərtlər... Bütün bunları söhbət zamanı öyrənmək olur. Hər şeyə diqqətlə baxırdım. Özümçün yaddaşımda qeydlər aparırdım. Amma yazmırdım. Çünki bilirdim ki, nəzarət var, bunu etmək olmaz. Amma içəridə problemləri və onların həll olunması yollarını gördüm. Özümçün müəyyən nəticələr çıxardım. İkincisi, Azərbaycanın televiziya kanallarına baxmırdım. Hələ 2010-cu ildə bu barədə demişdim ki, Azərbaycan telekanallarının ictimai fikrə heç bir təsir göstərmək imkanları yoxdur. Ondan sonra Ramiz Mehdiyev də toplantı keçirərək, bu barədə fikirlərini demişdi, yerli kanalları tənqid etmişdi. İndi mən başa düşdüm ki, vəziyyət daha da kritikdir, bu telekanalların Azərbaycan ictimaiyyətinə, auditoriyasına, ümumiyyətlə, heç bir təsiri yoxdur, sıfır səviyyəsindədir təsir gücü. Acınacaqlı vəziyyət idi gerçəkdən də. Əslində buna baxmaq mənim üçün gerçək işgəncə idi. Mən mazoxist-filan deyiləm, ona görə də çox baxmırdım. Daha çox kitab oxuyurdum.

***- Həbsxana həyatınızda yaşadıqlarınızı bir kitab halına salacaqsız?***

- Yox, buna vaxt yoxdur. Əslində buna böyük vaxt lazımdır. Mənim həll etməli, yoluna qoymalı olduğum məsələlər var.

***- Bu arada "Turan" necə olacaq? Onunla bağlı bir planınız varmı?***

- Bilmirəm. Hesablar bağlanıb, hesabdan pul çıxarılıb. Fəaliyyət göstərmək üçün pul yoxdur. Maliyyə ciddi problemdir.

***- Bu bir ayda ən çox nədən ötrü darıxdız?***

- Təbii ki, ailəmdən ötrü. Yoldaşım, qızım, atam... İşçilər üçün də həmçinin. Bütövlükdə bu vəziyyət imkan verdi ki, daha çox düşünüm, proseslərlə bağlı xeyli fikirləşmək vaxtı qazandım. Çünki işin-gücün içində düşünməyə imkan olmurdu.

***- Düşündüz, düşündüz... Yəqin ki, bunun nəticəsində yeni qərarlar da verdiniz.***

- Əlbəttə, düşünəcəyik. Bu vəziyyət yarandı və bu, müəyyən bir dönüşdür. Bu, elə-belə deyil. Bəzi məsələlər müəyyən dərəcədə korrektə olunacaq. Mən hər zaman optimist olmuşam, bunu bilirsiz. Məndə pessimizm olmayıb heç zaman.

**❑ Sevinc TELMANQIZI**

# Mətbuat Şurası prezident İlham Əliyevə təşəkkür məktubu ünvanladı

## Əflatun Amaşov: "Mehman Əliyevlə bağlı məsələyə həssas münasibətiniz də dövlət idarəçiliyindəki humanizm prinsipinin növbəti təzahürüdür"

**Azərbaycan Mətbuat Şurası «Turan» informasiya agentliyinin direktoru Mehman Əliyevin həbsdən azad edilməsi ilə bağlı prezident İlham Əliyevə təşəkkür məktubu ünvanlayıb.**



Əflatun Amaşov

Musavat.com-a göndərilən məktubda bildirilir:

«Söz və ifadə azadlığının dərinləşməsinə xüsusi önəm verməyiniz Azərbaycanın media ictimaiyyəti tərəfindən hər zaman dərin rəğbət hissi ilə qarşılanmaqdadır. Jurnalistlərimiz tam qətiyyətlə Sizi demokratik prinsip və dəyərlərin təminatçısı və qoruyucusu kimi görürlər. Onlar «Turan» informasiya agentliyinin direktoru Mehman Əliyevin həbsdən azad edilməsinin timsalında bunun bir daha şahidi oldular. Belə yanaşmanıza, o cümlədən Mətbuat Şurasının Mehman Əliyev ilə bağlı müraciətinə həssas münasibətinizə görə Sizə dərin təşəkkürümüzü bildiririk.

Ölkəmizdə media sahəsində əldə olunmuş dinamik inkişaf jurnalistlərin tam sərbəst şəkildə fəaliyyət göstərmələrinə imkan verir. Sizin iradənizin nəticəsidir ki, diffamasiya ilə bağlı moratorium qeydə alınıb. Bu mövqeyiniz jurnalistlərin peşə fəaliyyətlərinə görə həbs təhlükəsi ilə üzləşməyəcəklərinə dair ali təminatdır. Belə bir mühitin formalaşması isə şübhəsiz, media təmsilçilərinin yaradıcılıqlarına müsbət təsir göstərir. Hazırda Azərbaycan jurnalistikası dünyanın nəinki ölkəmizlə, bütövlükdə Qafqaz regionu ilə bağlı başlıca informasiya mənbəyidir.

Siz çıxışlarınızda kütləvi informasiya vasitələrinin cəmiyyətdəki missiyasını, dövlət idarəçiliyində effektivliyin və səmərəliliyin artırılmasındakı rolunu yüksək qiymətləndirmiş, mövcud istiqamətdə prinsipial baxışınızı ifadə etmisiniz. Söz və ifadə azadlığının demokratiyanın ali dəyəri, vətəndaş cəmiyyəti quruculuğunun mühüm şərti olduğunu bildirmiş, tam sübuta yetirmisiniz ki, Azərbaycanda bu ideyanın təcrübədə tətbiqi imkanları xeyli genişdir. Bu baxımdan, kütləvi informasiya vasitələrimizin hüquqi bazasının möhkəmləndirilməsi və təkmilləşdirilməsində tutmuş jurnalistlərin sosial-məişət şəraitlərinin yaxşılaşdırılmasınadək həyata keçirdiyiniz tədbirlərin hər birini vurğulamaq mümkündür. Mövcud dəst-xəttiniz yalnız jurnalistikaya dəyər deyil, həmçinin Vətənə sədaqət, vətəndaşa qayğı ruhundan qaynaqlanan humanizm nümunəsidir. Mehman Əliyevlə bağlı məsələyə həssas münasibətiniz də dövlət idarəçiliyindəki humanizm prinsipinin növbəti təzahürüdür.

Möhtərəm cənab Prezident, Sizə bir daha «Turan» informasiya agentliyinin direktoru Mehman Əliyevin həbsdən azad olunmasına həssas yanaşdığınıza görə ölkəmizin media ictimaiyyəti adından dərin təşəkkürümüzü bildirir, Azərbaycanın daha da inkişafına yönələn yorulmaz fəaliyyətinizdə yeni-yeni müvəffəqiyyətlər arzulayırıq».

# "Bu, Lapşinə ömrü boyu dərs olacaq"

## Yevda Abramov: "Əsas odur ki, Azərbaycan öz prinsipiallığını əvvəldən-axıra qədər göstərdi"

**Azərbaycan prezidenti İlham Əliyev Aleksandr Lapşinin əfv olunması haqqında sərəncam imzalayıb. Sərəncama müvafiq olaraq, Lapşin Azərbaycanda cəzasının qalan hissəsini çəkməkdən azad olunur və yəqin ki, yaxın vaxtlarda o, İsrailə ekstradisiya ediləcək.**

Bu barədə prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov AZƏRTAC-a bildirib. Dövlət rəsmisinin sözlərinə görə, Lapşinin Azərbaycanda cəza çəkməkdən azad olunması və İsrail hökumətinə təhvil verilməsi məsələsi çoxdan idi ki, iki dövlətin müvafiq orqanları arasında müzakirə olunurdu: "Bununla bağlı belə razılığa gəlinmişdi ki, cənab prezidentin əfv sərəncamından sonra Azərbaycan hökuməti Lapşini İsrail tərəfinə təhvil verir və Lapşin bundan sonrakı öhdəliyini İsrail hökumətinin qanunlarına müvafiq olaraq yerinə yetirir. Lakin təəssüflər ki, İsrail rəsmiləri onun ekstradisiyası ilə bağlı prosedunu bir xeyli uzatdılar. Bunun nəticəsi olaraq, dünən xoşagəlməz bir hadisə yaşanıb. Lapşin cəzaçəkmə müəssisəsində özünəqəsd cəhdinə əl atıb. Düzdür, həbsxana nəzarətçilərinin ayıqlığı və çevikliyi nəticəsində bu qəsdin qarşısı alınıb, təcili olaraq ona lazımi tibbi yardım göstərilib və hazırda Lapşin həkim nəzarəti altında müalicəsini davam etdirir".

Əli Həsənov qeyd edib ki, cənab prezidentin əfv sərəncamı imzalamasından sonra hazırda Lapşinin ekstradisiya məsələsi ilə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İsrail səfirliyi məşğul olur. Yəqin ki, qısa vaxtda bu proses başa çatacaq.

Azərbaycanda həbsdə olan blogger Aleksandr Lapşinin intihara cəhd etməsi ilə bağlı bəzi təfərrüat məlum olub. "Report"un əldə etdiyi məlumata görə, A.Lapşin saxlanıldığı kamerada özünü asmağa cəhd edib. Penitensiar Xidmətin əməkdaşlarının sayıqlığı nəticəsində onun intihar etməsinin qarşısı alınıb. O, dərhal Mərkəzi Klinik Xəstəxanaya çatdırılıb. Məlumata görə, hazırda A.Lapşinin səhhəti normaldır.



Yevda Abramov

Xatırladaq ki, Azərbaycan Baş Prokurorluğunun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində istintaqı aparılan cinayət işi üzrə ayrı-ayrı dövlətlərin vətəndaşlığını daşıyan A.Lapşin Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə, ərazi bütövlüyünü parçalamağa yönələn açıq çağırışlar etmə əməllərinə görə təqsirləndirilən şəxs qismində cəlb edilib. Beynəlxalq və dövlətlərarası axtarışa verilməsi ilə əlaqədar 2016-cı il dekabrın 15-də Belarus Respublikasının hüquq-mühafizə orqanları tərəfindən Minskdə saxlanılaraq, 2017-ci il fevralın 7-də Azərbaycan Respublikasına ekstradisiya olunub.

Bakı Ağır Cinayətlər Məhkəməsi A.Lapşini ittiham olunduğu Cinayət Məcəlləsinin 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddəsi ilə təqsirli bilərək 3 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edib.

**İsrailin Azərbaycandakı səfiri Dan Stav Aleksandr Lapşinin əfv edilməsi ilə bağlı prezident İlham Əliyevin imzaladığı sərəncama münasibət bildirib. Virtualaz.org-un məlumatına görə, səfir jurnalistlərə bildirib ki, əfv qərarını müsbət qarşılayır. Səfir ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü tanıdığını vurğulayıb:** "Əvvəllər də qeyd etdiyimiz kimi, İsrail Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini və Minsk Qrupunun səylərini dəstəkləyir".

Xatırladaq ki, dünən Azərbaycan prezidenti İlham Əliyev Lapşin Aleksandr Valeryeviçin əfv edilməsi haqqında sərəncam imzalayıb.

**Milli Məclisin yəhudi əsilli deputatı Yevda Abramov "Yeni Müsavat"a bildirdi ki, Lapşinin əfvinə geniş şərh vermək niyyətində deyil:** "Dövlət belə hesab edib, buraxıb. Bu, siyasətdir, biz qarışa bilmərik. Əsas odur ki, Azərbaycan öz prinsipiallığını əvvəldən-axıra qədər göstərdi. Onu həbs etdirdi, Azərbaycana gətirib mühakimə etdi və sonda da əfv qərarını verdi". **Maraqlıdır, Lapşin bir daha Azərbaycan qanunlarını pozub Qarabağa qanunsuz səfər edə bilərmi? Y.Abramov:** "Mənə elə gəlir ki, bu, ona ömrü boyu dərs olacaq. Ona görə də buraxıldı".

**❑ Cavid TURAN**

**Azərbaycan prezidenti İlham Əliyev 11 sentyabrda verdiyi üç mühüm qərarla son günlər xeyli gərginləşmiş kimi görünən ölkə gündəmini dəyişdi. Prezidentin həm "Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev barəsində olan həbs-qətimkan tədbirinin dəyişdirilməsi üçün müraciətə müsbət cavabı, Qarabağa qanunsuz səfərə görə məhkum edilmiş Aleksandr Lapşinin əfv ilə bağlı sərəncamı və eyni gündə məhkəmədə Nardaran məhbuslarının 14 nəfərinin cəzalarının çəkilməmiş hissəsindən azad edilməsi əlbəttə ki, təsadüfi deyil.**




# Azərbaycanın 11 sentyabrı - prezident İlham Əliyevdən üç mühüm qərar

## Mehman Əliyev barəsində həbs-qətimkan tədbirinin dəyişdirilməsi, Qarabağa qanunsuz səfər etmiş Aleksandr Lapşinin əfvi və Nardaran məhbuslarının 14 nəfərinin cəzalarının çəkilməmiş hissəsindən azad edilməsi prezident İlham Əliyevin ölkədə barışa və vətəndaş cəmiyyətinə yönəlik mesajı kimi qiymətləndirilir; bu, həm də anti-Azərbaycan qüvvələrə verilmiş tutarlı cavabdır...

Əvvəla, bu addımları hər şeydən öncə prezident İlham Əliyevin ölkədə barışa və vətəndaş cəmiyyətinə yönəlik mesajı kimi qiymətləndirmək lazımdır.

Prezident İlham Əliyev mediaya münasibətdə çox həssasdır. Onun jurnalist Rasim Əliyevin döyülərək ölməsindən sonra sərt mövqe ortaya qoymasını və günahkarların cəzalandırılmasını yada salmaq kifayətdir. Müalicəyə ehtiyacı olan neçə-neçə jurnalistin müalicəsinə dövlət başçısı səviyyəsində dərhal reaksiya verilməsini də yaddan çıxarmaq olmaz. Prezidentin mediada tanınmış simalardan olan M.Əliyevin həbsinə reaksiya verəcəyi də əslində gözlənilən idi. Hamıda belə bir ümid vardı ki, M.Əliyevin vergi borcuna görə həbsinə son sözü prezident deməlidir...

Tanınmış media kapitanı Mehman Əliyevin həbsindən sonra cəmiyyətdə və media ictimaiyyətində həm də belə bir rəy vardı ki, yaranmış vəziyyət Azərbaycanın beynəlxalq nüfuzunu zədələyir və prezidentin məsələyə müdaxiləsi çox ləngiyə bilməz. Hadisələrin gedişatı göstərdi ki, doğrudan da bəzi beynəlxalq dairələr bu həbsdən həm də fürsət gözləyirmiş kimi Azərbaycana qarşı təzyiq kimi istifadə etməyə başladılar. Etiraf edilməlidir ki, Mehman Əliyevin həbsi Azərbaycanı istəməyən qüvvələrə də bəhanə vermişdi və artıq çox çirkinləşmiş kampaniyada media kapitanının həbsi arxa plana keçmişdi.

Həm ziyalıların, həm M.Əliyevin müraciətini nəzərə alaraq həbs-qətimkan tədbirinin dəyişdirilməsi bu baxımdan həm də anti-Azərbaycan qüvvələrə verilmiş cavabdır. Bu qərar mümkündür ki, həmin "şər maşınlarını" dayandırmasın, amma onların əlində "jurnalisti tutdular" kimi ciddi bəhanə artıq yoxdur.

Prezident bu humanist davranışı ilə medianın məhz onun qoruması və qarantiyası altında olduğuna da aydın mesaj verdi. Zənnimizcə, bu, hərdən "qaşınmayan yerdən qan çıxarmağa" həvəsli olan, jurnalistlərə "yadplanetli adam" kimi baxan bəzi məmurlara da tutarlı cavab oldu.

Nardaran hadisələri zamanı həbs edilən 14 nəfərin də azadlığa buraxılmasının arxasında şübhə yoxdur ki, prezident İlham Əliyevin iradəsi dayanır. 2015-ci il noyabrın 26-da Nardaranda keçirilən əməliyyat zamanı 2 polis əməkdaşı, 4 kənd sakini həlak olmuşdu, bir neçə nəfər isə ağır yaralanmışdı. Nardaran kəndi də məhz prezidentin iradəsi ilə radikal dindar qüvvələrin əsarətindən azad edildi, kənd yeni həyatına qovuşdu. Əməliyyat nəticəsində yüzdən çox adam saxlanılsa da, onların bir hissəsi azadlığa buraxıldı. Amma bəziləri barəsində məhkəmə hökmü çıxarıldı ki, onlardan daha 14 nəfəri sentyabrın 11-də azadlığa qovuşdu.

11 sentyabr dünyada radikal dindarların Amerikada törətdiyi dəhşətli terrorla assosiasiya olunur. Radikal dindarların qurbanı olmuş əksər Nardaran məhbuslarının 11 sentyabrda azadlığa buraxılması tarix baxımından sırf təsadüf də ola bilər. Həbsdəki gənclərin bir vaxtlar radikal dindarların əsl cəhənnəmə çevirdiyi, indi isə büsbütün yenilənmiş qəsəbəyə qayıdışı onlara verilmiş şansdır. Azərbaycan prezidentinin iradəsinə əsaslanmış bu məhkəmə qərarı da cəmiyyətə bir həmrəylik jesti kimi qiymətləndirilməlidir. Nardaran məhbuslarının azadlığa buraxılması üçün dünyadan çağırışlar da yox idi. Onların azadlığa buraxılması dövlətin vətəndaşına verdiyi şansdır ki, bu qərarın altında prezidentin imzası olmasa da, kimin hökmü olduğuna şübhə yoxdur.

Aleksandr Lapşini isə prezident imzaladığı əfv sərəncamı ilə azad etdi. Üç ölkənin vətəndaşı olan Lapşinin həbsi və cəzalandırılması üçün prezident İlham Əliyevin cəsarətli və prinsipial addımları təkcə Azərbaycanda deyil, digər ölkələrdə də rəğbət doğurmuşdu.

Hamı üçün aydın idi ki, Azərbaycan qanunlarını heçə sayaraq Qarabağa səfər etmiş bloggerin həbsi xüsusilə vətəndaşı olduğu iki ölkədə-İsraildə və Rusiyada ciddi rezonans doğuracaq. Belə də oldu... Amma prezident ona nail oldu ki, Lapşin qolları bağlı Azərbaycana ekstradisiya edildi. Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu Lapşin buradakı məhkəməsində etiraf etdi. Lapşinin cəzalandırılması barədə hökmdən Qarabağ torpaqlarından ermənilərin xeyrinə güzəşt istəyən beynəlxalq güclər də öz payını aldı. Lapşinin əfv edilərək İsrailə ekstradisiyası Azərbaycanın həm də beynəlxalq humanizm prinsiplərinə, qəbul etdiyi konvensiyalara sadiqliyini nümayiş etdirmiş oldu.

❑ **"Yeni Müsavat"**

# Ermənistanla bağlı daha nələri eşitmək olar?..



**Hüseynbala SƏLİMOV**

**Ötən dəfələrdə də yazmışdıq ki, bu otuz illik münaqişə prosesinin ən əcaib tərəflərindən biri budur ki, Ermənistanı bizə öz iradəsi və qərarı olan ölkə kimi sırıyıblar. Biz də siyasətdə hər şeyi öz adı ilə adlandırmaq heç də həmişə mümkün olmadığından bu ssenaridən çıxa bilmirik. Bəli, qonşu Gürcüstan bunu etdi, bir çox məsələləri öz adı ilə adlandırdı və bu hansı nəticələrə gətirib çıxardı,- düşünürəm ki, bunu deməyə lüzum yox, çünki hər şey göz önündədir...**

Amma istəməzdim ki, dediklərim belə yozulsun ki, guya Ermənistan passiv bir icraçıdır və yaxud da bir çoxlarının dediyi kimi, Rusiyanın bu regiondakı geosiyasi ambisiyalarının girovudur. Yox, məsələ bundadır ki, bu xalqda türklərə qarşı heyvani nifrət, torpaq acgözlüyü və təbii ki, əcaib-qəraib fantaziyalarla yaşamaq adəti var. Bütün bunlar Rusiya kimi böyük dövlətin bu regiondakı geosiyasi planları ilə çox gözəlcə uzlaşır.

Bütün bunları niyə deyirəm? Elə bu günlərdə belə informasiya yayıldı ki, guya Ermənistanın müxalifət partiyalarından biri ölkəsinin Avrasiya Birliyindən çıxması haqqında layihə hazırlayıbdır.

Doğrusu, bu xəbərin bu qədər ciddiyə alınması məni bir qədər təəccübləndirdi. Bəli, hansısa bir müxalifət partiyası nəsə deyə bilər, amma əsas odur ki, bu xüsusda Moskva nə deyir? Moskva isə sözünün gücünü elə bu günlərdə göstərdi. NATO-nun hərbi təlimlərində ikinci dəfə iştirak etmək istəyən İrəvana gözünü elə ağartdı ki, ermənilər, necə deyər, sarılarını uddular...

İndi bu ölkədə diqqət çəkən bir məsələ varsa da, o da hakimiyyət uğurundakı mübarizədir. Ölkə özlərinin dediyi kimi, parlament üsul - idarəsinə keçməlidir və bundan sonra həlledici fiqur baş nazir olacaq. Elə bu səbəbdən də artıq indidən bunun üstündə savaş gedir. Ona görə də hələ çox siyasi mahnılar eşitməli olacağıq. Əsas odur ki, onları bir o qədər də ciddiyə almayaq. Rusiyanın forpostunda son anda elə siyasi fiqurları da Moskvanın özü düzüb-qoşacaq...

Bir də ki, bizim üçün daha vacib olanı Qarabağ problemidir. BMT-nin sessiyasında nazirlərin görüşəcəyi bildirilir. Doğrusu, düşünmürük ki, bu görüş hansısa ciddi bir anlaşma ilə yadda qalsın.

Məsələ də daha çox onunla bağlıdır ki, bir az əvvəldə dediyim kimi, Yerevanda hakimiyyət uğrunda çarpışmalar gedir və hamı da özünü ən "vətənpərvər" qüvvə kimi göstərməyə çalışır.

Rusiyadan da ciddi niyyət sezilmir. Bu yaxınlarda, R.Xoqland münaqişənin çözümü ilə bağlı prinsipləri açıqlayarkən S.Lavrov bir daha Qərbi sancmaq fürsətini əldən vermədi və "Bu vaxta qədər bizi eşitsəydilər..." - dedi. Bəs görən, Qərb Rusiyanı "eşitsəydi" nə olacaqdı?

O halda ola bilsin ki, Qarabağ Azərbaycana, Abxaziya və Cənubi Ocetiya Gürcüstana, Dnestrətrafı Moldovaya, Krım da Ukraynaya "qayıdacaqdı". Di gəl ki, bunun əvəzində Azərbaycan da, Gürcüstan da, Moldova da, elə Ukrayna da bütünlüklə Rusiyanın nəzarətinə keçəcəkdi! Qəribə "yerdəyişmə"dir, deyilmi? Bəli, oyunun bütün fəlsəfəsi də elə bundadır-güclü, qalib tərəf hər şeyi götürür...

Təskinlik verən heç bilirsinizmi, nədir? Bütün post-sovet məkanına baxanda dinamik proseslər gedir. Kimi inamla Qərbə doğru gedir, kimi də başqa yolla özünün müstəqilliyini möhkəmləndirir...

Özümüzdən sonra məni ən çox Qərbə üz tutan ölkələr - Gürcüstan və Ukrayna maraqlandırır.

Bu yaxın günlərdə Ukrayna prezidentinin çıxışını oxudum. Deyim ki, peşmanlıq notları yoxdur, qərbləşmə siyasətini bir az da dərinləşdirmək ruhu duyulur. Vacib olanı da budur.

Adətən işlər rəvan getməyəndə keçmiş üçün nostalji baş qaldırır, insanlar "Kaş, belə etməyəydik!" deyirlər. Ola bilsin, haradasa və insanların hansısa qismində belə duyğular var, amma onlar həlledici və üstün deyilər.

Məni isə məyus edən budur ki, Ukraynada NATO ilə bağlı qərar verməyə elə də tələsmirlər. P.Poroşenko daim Rusiyanı qorxu altında saxlayır ki, baxın, NATO ilə bağlı referendum keçirəcəm...

İstəməzdik ki, NATO məsələsi siyasi konyunktura predmeti olsun. Məsələ bundadır ki, Brüssel ikinci genişlənməyə qərar versə, o halda dalğavari proses gedəcək və hətta bu gün ağla gəlməyən ölkələr belə bir gün ayılıb görəcəklər ki, Alyansa üzv olublar. Amma təəssüf ki, Brüssel də tələsmir. Görünür, məqam yetişməyibdir...



# Gündəm mövzusu şirnisi getmiş saqqıza dönəndə...

Samir SARI

**Bilmirəm siz bu "gündəmi dəyişirlər" söhbətini ciddiyə alırsınız, ya yox, amma mənə elə gəlir ki, bu xüsusda cəmiyyətdə, oxumuş adamlar demişkən, paranoidal təbəddülatlar baş verir. Türkün sözü, "keçiləri qaçırırıq", deyəsən.**

Məsələ belədir: bütün başqa ölkələrdə olduğu kimi, hər gün bizim ölkəmizdə də cürbəcür hadisələr baş verir. Bunların içində elə olaylar olur ki, onlar xalqın həssas damarına düşür, ictimai müzakirə başlayır.

Peşəkar mediada, sosial şəbəkədə vay-növsə qopur. Absurda çatan lağlağılar, ciddi-ciddi analizlər baş alıb gedir. Ancaq axırda "çeynənmiş saqqız" effekti yaranır.

Necə ki, çeynənən saqqızın şirnisi gedəndən sonra onu gövşəmək ləzzətsiz iş olur, eləcə də dadı-duzu qaçmış mövzunu gündəmdə saxlayıb müzakirə etmək xalqa ləzzət eləmir.

Üstəlik, gün dəyişib axı. Gün dəyişib və yeni gün öz mövzuları ilə gəlib.

Məsələn, tutaq ki, Elza yeni bir ekssentrik (pis söz deyil) şeir yazıb. Yaxud hansısa deputat bir söz deyib. Və ya daha bir məmur oğlu bahalı maşını ilə camaatın belindən keçib. Yəni bu kimi ictimai müzakirə tələb edən işlər.

Belə olanda camaat dərhal köhnə, dadı-duzu, şirnisi qaçmış söhbəti buraxır, təzə mövzunun üstünə düşür. Sırf şirəli mövzu olduğuna görə.

Bu təqdirdə də yüzlərlə adam başlayır ki, "gündəmi qəsdən dəyişirlər".

Düzü, əvvəllər mən də şübhələnirdim ki, deyəsən, xoşagəlməz müzakirələrdən bezən hansısa bir dairə ictimai müzakirənin mövzusunu dəyişmək üçün özündən nəsə uydurur, yeni bir olay yaradır.

Bir xeyli izlədim, gördüm, yox, bu gündəm elə şeydir ki, öz-özünə dəyişir, nə qədər dəyişməsini istəməsən də, dəyişməyə çalışsan da, xeyri yoxdur, öz kefi ilə dəyişə-dəyişə gedir.

Hələ ona da fikir verdim ki, hökumətin gündəmi süni şəkildə dəyişməsinə ehtiyac yoxdur. Onsuz da bütün gündəm mövzularının qəhrəmanı özü olur.

Məsələn, cəsur deputat bir qalmaqallı söz deyir, gündəm olur, iki saatdan sonra FB trolları söhbəti çevirirlər iqtidar komandasının üstünə, yazırlar ki, bu cür deputat olan iqtidar elədir, belədir. Ertəsi gün başqa bir məmur daha bir qalmaqallı söz deyir, əvvəlcə hamı deyir, aha, gündəmi dəyişirlər, sonra trollar meydana çıxır, yazırlar ki, mövcud rejimin məmurları belədir, ağızlarının danışığını bilmirlər. Əgər varlı adamın övladı qəza törədibsə, yenə qəzəbli tənqid oxları iqtidara tuşlanır. Kasıb oğlu varlı balasını şapalaqlayıbsa, "harınların cəzalandırılması başlandı" kimi müzakirələr başlayır.

Bu baxımdan, əgər həmişə gündəmdə iqtidar komandası olacaq və söyüləcəksə, daha gündəmi dəyişmələri nələrinə lazımdır, elə köhnə mövzularda tənqid olunsalar, söyülsələr yaxşı olmazmı?

Onu da aydıraq ki, bu gündəm söhbətinə diqqət edən elə bizik - sosial şəbəkədəki 5-6 yüz adam. Xalqımızın öz gündəmi, öz dərd-səri, öz müzakirə mövzusu var.

Bax, o gün Akif Əli "Feysbuk"da hər kəsin dilində-ağzındaykən bir hüzr yerinə getmişdim, camaat oturub Eldar Mahmudovun nazir olduğu vaxt xərac alınan iş adamlarından, aparılıb padvala basılanlardan, milyardların mənimsənilməsindən-filandan danışırdılar. Ağsaqqallar deyirdilər, "pah aponnan, dövləti dircə yeyirmişlər ey".

Bu auditoriyada heç kəsin xəbəri yox idi ki, Elza təzə şeir yazıb, Akif Əli də böyük alimimiz barədə xoşagəlməz ifadələr işlədib.

Hiss olunurdu ki, bu adamlar gündəmin çox gerisindədirlər. Görün, ləğv edilmiş MTN-in məsələsi nə vaxtdır gündəmdən çıxıb. Hətta bu saat bu məsələni hakimlər belə müzakirə etmir, amma xalq unutmayıb, çünki "dövlətin dircə yeyilməsi" məsələsi balaca məsələ deyil.

Əlbəttə, Elzanın yeni şeir yazması məsələsi də ciddi məsələdir, amma təqaüdü dolanışığına çatmayan ağsaqqal üçün daha vacib məsələ dövlətin bankomatlarda pulun qalıb-qalmamasıdır.

Odur ki, bu "gündəmdəyişmə" söhbətini bağlasaq, yaxşıdır. Camaat yanlış anlayır, elə bilir ki, gündəm dəyişməsə, hansısa mövzu iki gün yox, bir həftə, bir ay müzakirə olunsa, öz-özünə nəsə olacaq və haqq-ədalət yerini tapacaq.

Budur, bu yazı yazılanda Mehman Əliyevi azad etdilər, gündəm dəyişdi, sabah ola bilər, kimisə tutacaqlar, gündəm yenə dəyişəcək. Deputatların da iclasları başlayır artıq, gündəmi dəyişdirə-dəyişdirə gedəcəklər.

# SOCAR rəsmisi məşhur oliqarxın zavodunun satın alınmasından danışdı

## "SOCAR ötən il zavod üçün 394 milyon manat avans ödənişi edib"; Piriyevlərin "AzMeCo" zavodu "SOCAR Methanol"a çevrildi

**Məşhur azərbaycanlı oliqarx, "PNN Group" şirkətinin rəhbəri Nizami Piriyevin Azərbaycandakı biznes imperiyasına daxil olan "AzMeCo" metanol zavodu "SOCAR Methanol" MMC-yə çevrilib. Zavod yaxın gələcəkdə "Made in Azerbaijan" markası ilə yeni məhsulların istehsalını planlaşdırır. Avqustdan etibarən SOCAR-ın mülkiyyətinə keçən zavodda bu il 250 min ton metanol istehsal edilməsi nəzərdə tutulub. Zavodda istehsal olunan məhsullar əsasən Türkiyə, bir sıra Qərbi Avropa və Aralıq dənizi hövzəsi ölkələrinə ixrac edilir.**



Nizami Piriyev

**"SOCAR Methanol" MMC-nin baş direktorunun müavini Tural Baxşıyev** metanol zavodunun istehsal gücü və fəaliyyəti ilə bağlı son məlumatları məxsusi olaraq AzərTAC-la bölüşüb. T.Baxşıyev deyib ki, "SOCAR Methanol" MMC "SOCAR" brendi altında "Made in Azerbaijan" markası ilə son istifadəçilər üçün nəzərdə tutulmuş yeni məhsulların yaxın gələcəkdə buraxılması üzərində tədqiqat işləri aparır. **""SOCAR Methanol" MMC istehsalın təkmilləşdirilməsi məqsədilə Azərbaycanın bir neçə elmi təşkilatı ilə - Azərbaycan Milli Elmlər Akademiyasının Neft Kimya Prosesləri İnstitutu, Beynəlxalq Ekoenerji Akademiyası, eləcə də digər elmi müəssisələr və araşdırma mərkəzləri ilə elmi-istehsal yöndə əməkdaşlığa başlayıb. Bu il üçün 250 min ton metanol istehsalı planlaşdırılıb. Artıq nəzərdə tutulan illik istehsal hədəfinin 75 faizi yerinə yetirilib".** T.Baxşıyev deyib ki, zavodun illik istehsal gücü 650-700 min tondur. Yaxın gələcəkdə illik istehsalın 500 min tona çatdırılmasını hədəfləyirlər: **"Metanol zavodunda istehsal olunan məhsulun ixrac olunduğu ölkələr arasında Türkiyə, bir sıra Qərbi Avropa və Aralıq dənizi hövzəsi ölkələri üstünlük təşkil edir. Məhsulun ixracı ilə əsasən SOCAR-in Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi məşğul olur".**

Açıqlamadan bəlli olur ki, SOCAR ötən il zavod üçün 394 milyon manat avans ödənişi edib. Lakin zavod 810 milyon manat qiymətləndirilir.

T.Baxşıyev "Zavod üzərində nəzarət tam olaraq SOCAR-a nə zaman keçəcək" sualına belə cavab verib: "Metanol zavodu 2016-cı ilin noyabr ayından etibarən SOCAR-ın idarəçiliyi altında onun törəmə şirkəti olan "SOCAR Methanol" MMC tərəfindən idarə olunur. Bu ilin avqust ayından etibarən isə zavod SOCAR-ın mülkiyyətinə keçib. Hazırda zavodda 350-dən çox Azərbaycan vətəndaşı daimi işlə təmin olunub. İşçilərin orta yaş həddi 36 yaş təşkil edir".

Qeyd edək ki, Nizami Piriyevin adı Azərbaycan Beynəlxalq Bankında baş verən qalmaqallı olaylara qarışmışdı. Oliqarxın bankdan külli miqdarda kredit alıb qaytarmadığı üzərindən həbsi gerçəkləşmişdi. Bir müddət sonra azad edilən oliqarxın bankın kreditlərinin bir qismini geri qaytarması, bir qisminin isə əmlakları ilə əvəzləşdiriləcəyi haqda bilgilər vardı. Bu ilin əvvəlində bu xəbərləri təsdiqləyən məlumatı **SOCAR-ın vitse-prezidenti Süleyman Qasımov** açıqladı. Bildirdi ki, Nazirlər Kabineti "Aqrarkredit" QSC-yə hərrac keçirmədən birbaşa olaraq şirkətin SOCAR-a satılması ilə səlahiyyət verməli idi. Bundan əvvəl isə Nazirlər Kabineti şirkətin alqı-satqısının həyata keçirilməsi ilə bağlı sərəncam imzalamışdı. Ardınca "Aqrarkredit" məhkəmənin müvafiq qərarı ilə şirkəti aldı. Qanunvericiliyin tələbinə əsasən, "Aqrarkredit" şirkəti hərrac yolu ilə, ya da yeni veriləcək səlahiyyətlə birbaşa olaraq SOCAR-a satmalı idi.

S.Qasımov həmin vaxt maraqlı bir detalı da açıqlamışdı. Demişdi ki, "AzMeCo"nun SOCAR-ın balansına keçirilməsi üçün birbaşa ödəniş olmayacaq: **""SOCAR "Azərenerji" ASC-dən keçmiş borclar üzrə yığılmış 416 milyon manatı alıb. Alqı-satqı əməliyyatı həyata keçirilən kimi bu məbləğ ilkin ödəniş qismində istifadə olunacaq. Növbəti ödənişlər zamanı da əsasən "Azərenerji"nin borclarından istifadə edəcəyik. SOCAR "AzMeCo"ya ümumilikdə 520 milyon dollar ödəyəcək. Məhkəmənin qərarına əsasən, "Aqrarkredit" ödənişi manat ifadəsində alacaq. Söhbət təxminən 800 milyon manatdan gedir".**

Dünya biznes aləmində də kifayət qədər populyar olan N.Piriyev 1958-ci ildə Gəncədə anadan olub. 1992-2002-ci illərdə "PNN Arkansas İnc" neft-qaz şirkətinin prezidenti kimi fəaliyyət göstərən Piriyev sonradan Rusiyanın "StroyTransGasOil" neft-qaz şirkətinin baş direktoru olub. 2006-cı ildə Bakıya qayıdıb və burada iş qurub. 2007-ci ilin oktyabrından həmçinin Avropa Ticarət, Kommersiya və Sənaye İqtisadi Palatasının Azərbaycandakı nümayəndəliyinə rəhbərlik edib. Nizami Piriyevin adı Azərbaycan oxucularına daha çox 2009-cu ildə Böyük Britaniyanın keçmiş baş naziri Toni Bleyr Azərbaycana səfər edən zaman tanış oldu. Bleyri Azərbaycana gətirən Piriyev onu Qaradağda tikilən "AzMeCo" metanol zavoduna aparmış, həmçinin şirkətlə bağlı tədbirdə iştirak etmişdi. O zaman bildirilirdi ki, bunun üçün şirkət Toni Bleyrə 200 min funt-sterlinq qonorar ödəmişdi. Qeyd edək ki, "AzMeCo" metanol zavodu havaya buraxılan karbon qazını azaltmağa xidmət edir. Hazırda dünyada çox aktual olan iqlim dəyişikliyi ilə mübarizə layihələri sırasından olan layihədir. Nizami Piriyevin şirkətlərinin bir hissəsinə isə oğlu Nəsib Piriyev rəhbərlik edir. Ümumilikdə Piriyevlər ailəsinin orta Asiyada - Özbəkistanda, Qırğızıstanda və Əfqanıstanda neft və qaz zavodları, Özbəkistanda ayaqqabı istehsalı biznesi var. Bundan əlavə, ABŞ-da qeydiyyatdan keçən "PNN Group" holdinq "De Bers" və "Hamleys" şəbəkəsinin Azərbaycan və Ukrayna üzrə distribiteridir. Nizami və Nəsib Piriyevlərin Qazaxıstanda 7 televiziya və radiokanalını, nəşriyyat evini birləşdirən media holdinqi var.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 187 (6801) 12 sentyabr 2017

# Hansı qütbün "beşinci kolon"u təhlükəlidir?

**Seçkilər yaxınlaşdıqca Azərbaycanda "beşinci kolon" mövzusu daha da aktuallaşır. Son vaxtlar məsələ daha çox bu kontekstdə müzakirə edilir: "Rusiyanın, yoxsa Qərbin "beşinci kolon"u təhlükəlidir?"**
**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev "Əsasən postimperial ölkələrdə, imperiyalardan qurtulmuş dövlətlərdə o imperiyaların başında olmuş dövlətlər çalışırlar ki, bu ölkələrdə əvvəllər qurduqları şəbəkələrdən istifadə etsinlər" deyə qeyd etdi: "Məxfi qurumlarla əməkdaşlıq etmiş şəxslərdən burada istifadə olunur. Onları müxtəlif yerlərdə yerləşdirir və sonra istifadə edirlər.**

Əlbəttə, imperiyalardan qurtulmuş dövlətləri öz təsir dairəsində saxlamaq üçün təkcə o imperiyalar çalışmır, digər dövlətlər də bu istiqamətdə fəaliyyət göstərirlər. Ən müxtəlif formada ələ aldıqları şəxsləri xarici dövlətlərin istəyinə uyğun çalışdırırlar. Fərqi yoxdur ki, bu "kolon" hansı dövlətə xidmət edir. Əsas olan odur ki, Azərbaycan dövlətinin əleyhinə fəaliyyət göstərirlər; istər hakimiyyət, istər siyasi partiyalar, istərsə də QHT-lər daxilində olsunlar. Hərbi müdaxilələrlə olmasa da, ölkə daxilində bəzi şəxslərdən istifadə etməklə, "baltanın sapı"ndan istifadə edirlər. Məncə, ən qorxulusu da budur. Kənardan müdaxilə olanda qarşısında durub cavab verirsən, amma evinin içərisində bir xəyanətkar olursa, onunla mübarizə aparmaq çox çətindir. Mübarizə aparmaq təkcə hökumətin işi deyil, bütün ictimaiyyət belə məsələlərə etiraz etməli, onların qarşısında durmalıdır. Türkiyəyə diqqət edin, hökumətə qarşı ən radikal olan partiyalar belə, Almaniya və digər Avropa dövlətlərindən Türkiyə əleyhinə hər hansı bir fəaliyyət görən kimi, ən sərt şəkildə etiraz edir, bəyanatlar səsləndirir. Məsələn, son dəfə Dövlət Baxçalının çıxışına qulaq asdım, açıq şəkildə bəyan etdi ki, biz dövlətimiz və hökumətimizin yanındayıq, kimsənin dövlətimizə təsir etməsinə imkan verməri̇k. Bu evi qorumaq hamımızın borcudur. İstər Qərb, istər Rusiya, istərsə də iranmeylli qüvvələr olsun, bunların heç bir fərqi yoxdur. Bu qüvvələr hər dəqiqə donunu geyinib, istənilən xarici qüvvənin yanında olmağı bacaran qəlbə malikdirlər. Onlar üçün fərqi yoxdur, hansı dövlət olsun. Onlar öz maraqlarını həmin xarici qüvvələrin maraqları içərisində axtarırlar. Amma yetkin, kamil, vətənə bağlı vətəndaş və siyasi təşkilatlar özünün fərdi, qrup, partiya marağını dövlətin maraqları içərisində axtarmalıdır. Başqa axtarışlar "beşinci kolon" axtarışlarıdır".

**Politoloq Elçin Mirzəbəyli hesab edir ki, "beşinci kolon"lardan qurtulmaq mümkün deyil:** "İstənilən bir ölkənin, yaxud transmilli korporasiyanın, beynəlxalq təşkilatın "beşinci kolon"unun siyasi və digər qərarların qəbulu prosesinə, ictimai rəyə təsir etmək imkanlarına malik olması təhlükəlidir. Bu baxımdan, yaxşı, ya da pis "beşinci kolon" yoxdur. Təsir mexanizmlərinə malik olmayan, passiv nüfuz agentlərini daim nəzarətdə saxlamaq və onlara qarşı önləyici tədbirlər görmək lazım gəlir. Amma siyasi və digər qərarların qəbuluna, ictimai rəyə təsir etmək gücü toplamış "beşinci kolon"a qarşı isə daha sərt və ardıcıl tədbirlər həyata keçirilməsi labüddür. Bu məsələlər dövlətin təhlükəsizliyi ilə bağlıdır və Azərbaycanda müvafiq qurumlar



**Fərəc Quliyev:** "Evin içərisində bir xəyanətkar olursa, onunla mübarizə aparmaq çox çətindir"



**Elçin Mirzəbəyli:** "İslahatlar dərinləşdikcə və irəli aparıldıqca, "beşinci kolon"ların əhatə dairəsi daha da daralacaq"

bu sahədə öz vəzifələrinin öhdəsindən layiqincə gəlirlər. Fərqi yoxdur, "beşinci kolon" istər rusiyameylli olsun, istər İran, istərsə də Qərb, nüfuz agentlərinin missiyası dövləti zəiflətməkdən, müqavimətini azaltmaqdan və onları himayə edən ölkədən asılı vəziyyətə salmaqdan ibarətdir. Bu səbəbdən haradan və necə idarə olunmasından asılı olmayaraq, "beşinci kolon" dövlətin təhlükəsizliyi üçün təhdiddir. Amma şübhəsiz ki, Rusiya ilə Qərbin nüfuz agentləri və onların strategiyaları arasında fərqlər var. Rusiyanın nüfuz agentləri himayəsində olduqları ölkənin komandası altında hərəkət edirlər, onları demokratik dəyərlər, insan hüquq və azadlıqları maraqlandırmır. "Beşinci kolon"un fəaliyyət dairəsini məhdudlaşdırmaq və onların yaratdıqları bəhanələrin təzyiqlərə yol açmaması üçün Qərb dövlətlərinin ictimai rəyi, kütləvi informasiya vasitələri ilə işləmək mümkündür. Lakin Rusiyada bu mümkün deyil. Öncə qeyd edim ki, ictimai rəy Kreml üçün heç bir əhəmiyyət daşımır. Əgər bu ölkə öz nüfuz müvəkkillərindən istifadə etməklə hər hansı bir ölkəyə təzyiq etmək yolunu seçərsə, bütün kütləvi informasiya vasitələri tutuquşu kimi eyni fikirləri təkrarlayacaqlar. Rusiyanın hədəf seçdiyi ölkəyə qarşı total bir kampaniya başladılacaq və bir nəfər də cəsarət etməyəcək ki, bunun doğru olmadığını bildirsin. Rusiyada bütün proseslər bir mərkəzdən idarə olunur, hətta ictimai rəy də... "Beşinci kolon"lardan tam qurtulmaq mümkün deyil. Onlar həmişə mövcud olacaqlar. Əsas məsələ onların dövlətin qərarlarına təsir etmək gücünə sahiblənə bilməmələri üçün önləyici tədbirlər görmək, bu qrupların fəaliyyətlərini daim nəzarətdə saxlamaqdır. Bunun üçün isə bütün mümkün metod və vasitələrdən istifadə olunmalıdır. İlk növbədə "beşinci kolon"un yaranmasına səbəb olan amillər aradan qaldırılmalıdır. Konkret fakt və hadisə ilə bağlı proseslər dərindən təhlil olunmalı, atılan hər hansı bir addımın ortaya çıxaracağı nəticələr göz önünə alınmalıdır. Bu arada yersiz bəhanələrə yol verən və öz korporativ maraqlarına görə dövlətin təhlükəsizliyinə təhlükə yaradan şəxs və dairələrin "beşinci kolon"dan heç də az təhlükəli olmadığını xüsusilə qeyd etmək istəyirəm..."

**Politoloq getdikcə "beşinci kolon"un əhatə dairəsinin daralacağına ümid edir:** "Rəsmi Bakı balanslı deyil, öz maraqlarına xidmət edən siyasət yürüdür. Bunlar tamamilə fərqli yanaşmalardır. Balanslı siyasət xarici amillərlə bağlıdır. Yəni bu və ya digər güc mərkəzi arasında balansı saxlamaqdan ibarətdir. Milli maraqlara xidmət edən siyasət isə bir çox hallarda bu balansı qorumaya da bilər. Yəni milli maraqlara təhlükə yaradan istənilən güc mərkəzinə qarşı sərt mövqe sərgiləyər və s. Biz rəsmi Bakının mövqeyində dəfələrlə bu kimi halların şahidi olmuşuq. Balanslı siyasətdən fərqli olaraq milli maraqlara xidmət edən siyasi kursda seçim anlayışı yoxdur. Əgər sən öz maraqlarını əsas götürürsənsə, bütün hallarda seçim qarşısında qalmayacaq, yaxud tərəddüd etməyəcəksən. Sənin üçün daha sərfəli, yaxud daha az ziyanlı olana üstünlük verəcəksən. Yəni milli maraqlarını seçəcəksən. Digər tərəfdən, "beşinci kolon"ların Azərbaycanda siyasi qərarların qəbul olunmasına təsir etmək gücündə olduğunu da düşünmürəm. Hesab edirəm ki, ölkəmizdə həyata keçirilən islahatlar dərinləşdikcə və irəli aparıldıqca, "beşinci kolon"ların əhatə dairəsi daha da daralacaq".

❑ **Cavanşir ABBASLI**

# Qərbin və Rusiyanın Azərbaycanda 2018 "hazırlıqları"...



Razi Nurullayev

## Partiya sədri: "Qərbin əli ilə baş verən hakimiyyət dəyişikliyi milli münaqişələrin qızışması, ölkədə separatizm dalğasının güclənməsi, dərəbəylik anlamına gəlir"

**2013-cü il prezident seçkiləri öncəsi Rusiyadan hakimiyyətə təzyiqlər müşahidə olunurdu, Qərb isə proseslərdən sanki kənarda qalmış kimi görünürdü. Növbəti prezident seçkiləri ili yaxınlaşır. Seçki ilinə yaxınlaşdıqca Qərb mediasından Azərbaycanla və hakimiyyətlə bağlı ard-arda sərt yazıların yazılmağa başlandığı müşahidə edilməkdədir. Bu, onu deməyə əsas verirmi ki, 2018-ci il də Qərbin müdaxilə cəhdləri və ya təzyiqləri ilə keçəcək?**

**Yeni AXCP-nin sədri Razi Nurullayev** bildirdi ki, ümumiyyətlə, Qərbin Azərbaycanda hakimiyyət dəyişikliyi etməsi imkanlarına şübhə ilə yanaşmaq üçün əsaslar var. Digər tərəfdən isə hər dövlətin öz maraqları var və əgər nəzəri cəhətdən düşünülsə, Qərbin əli ilə Azərbaycanda hakimiyyət dəyişikliyi baş verərsə, hər şeyin yağ-bal içində olacağını düşünmək sadəlövhlük olardı. Qərbin əli ilə baş verən hakimiyyət dəyişikliyi milli münaqişələrin qızışması, ölkədə separatizm dalğasının güclənməsi, dərəbəylik anlamına gəlir: "Bu elə prosesdir ki, Qərb istəsə belə bunun qarşısını ala bilməz. Demək istəmirəm ki, Qərb Azərbaycanda separatizmin, milli münaqişələrin qızışmasının tərəfdarıdır və bunu istəyir, lakin məsələ burasındadır ki, onların yanaşması və düsturu bunu qaçılmaz edir. Onlar İran və Rusiya arasında sıxılan Azərbaycana Gürcüstan kimi yanaşa bilməzlər. Ukrayna kimi yanaşmaları da qüsurludur.

Qərbin siyasi proseslərdə aktiv iştirakına isti yanaşanlardan soruşmaq lazımdır ki, siyasi dəyişiklik və ya hakimiyyət dəyişikliyi naminə siz Azərbaycanın bölünməsinə, separatizmin güclənməsinə, milli münaqişə ocaqlarının yaranmasına, Rusiyanın ölkəmizə müdaxiləsinə razısınızmı? Bu cavabdan çox şey asılıdır. Hamı deyəcək ki, yox. Bir də deyəcəklər ki, Qərbin gətirdiyi dəyişikliklər siz deyənləri özündə ehtiva etmir. O zaman soruşmaq lazımdır ki, Gürcüstan, Ukrayna gözünüzün qabağında deyilmi? Biz buna o zaman razı ola bilərik ki, Qarabağın da birdəfəlik itirilməsinə razı olaq. Amma biz siyasi partiya və siyasi güc kimi, heç bir siyasi şərt altında, heç bir hakimiyyət dəyişikliyi vədi və bizim başda olmağımız şərtinə belə razı ola bilmərik. Dəyişiklik xalqın içindən, ölkənin daxilindən qaynaqlanmalıdır. Dinc və sülh yolu ilə, konstitusiya çərçivəsində və qanunlarla. Xalqın toparlanması, təmərküzləşməsi, səfərbər olması, siyasi təşkilatların və partiyaların inteqrasiyası vacibdir. Xaricdən kömək ummaq lazım deyil. Hər kəsin, hər ölkənin öz maraqları var. Bir yol təkərə keçirdilər, fırlanmaqda davam edərsən".

**R.Nurullayevin fikrincə, Qərb öz dəyərlərini Azərbaycanda bərqərar etmək istəyir, biz də Avropaya inteqrasiyanın tərəfdarıyıq, amma bu, dinc yollarla və danışıqlar vasitəsilə həyata keçirilməlidir:** "Zor gücü ilə gələn demokratiya və inteqrasiya fəlakət və xaos deməkdir. Rusiyaya gəldikdə isə, demək olmaz ki, onlar bizə təzyiq göstərmirlər. Onlar da çox ciddi siyasi təzyiq göstərirlər və bu təzyiq seçkilər yaxınlaşdıqca güclənəcək. Onlar daxildə siyasi qüvvə taparaq, hakimiyyətə təzyiq göstərirlər. Bu da, ümumilikdə Azərbaycanın ziyanına işləyir. Çünki hakimiyyət məcbur olub, siyasi nüfuz, siyasi dəstək və lobbiçilik almağa məcbur olur. Bu məsələdə də yalnız hakimiyyət yox, siyasi partiyalar və təşkilatlar da günahkardır. Çünki Qərbə donoslar ötürməklə, min bir yolla Qərbi və dünyanı Azərbaycan hakimiyyətinin üstünə qaldırıb düşmən etməklə, onları siyasi dəstək almağa məcbur etmişik. Hətta müxalifət olaraq biz daha çox günahkarıq. Bəlkə də hakimiyyətlə anlaşmaq və problemləri daxildə öz aramızda həll etmək üçün kifayət qədər uğurlu səylər göstərə bilməmişik".

❑ **Etibar SEYİDAĞA**



# Ev dustağı nağılı

Zamin HACI
zaminhaci@gmail.com

**Jurnalist Mehman Əliyevin ev dustaqlığına buraxılması ölkəmizdə demokratiyanın inkişafı baxımından irəliyə doğru mühüm addım oldu. Biz hamımız artıq Mehman müəllim kimi optimist olmağa meylləndirik. Demək, o, nəsə bilirmiş. Yoxsa nikbinliyin nəticəsini cəmi 1 ayda görməsi çətin olardı. Qədim Çin müdrikləri də bu haqda deyiblər ki, əgər sən dünyaya qara gözlə baxsan dünyanı qara görərsən, mavi gözlə baxsan mavi, qəhvəyi baxsan qəhvəyi. Polad Alemdarın da yaxşı fikri var bu temada: "Sonunu düşünən qəhrəman olamaz". Danimarkalı filosof Seren Kyerkeqor isə deyibdir: "Xoşbəxtliyin qapısı bayıra açılır". Futbolçularımız danimarkalıları yaxşı mələtdilər.**

Qapı demişkən, nəyə inanırsınızsa ona and olsun ki, mən elə srağagün ev dustaqlığı haqda düşünürdüm, heç ağlıma da gəlmirdi sabah açılacaq və Mehman müəllim ev dustağı olacaqdır. Əslində heç düşüncəmin istiqaməti Mehman müəllimə aid deyildi. Özümü, bir çox yaxın adamları yada saldım, gördüm biz özümüz də Azərbaycan adlı məkanda yavaş-yavaş ev dustağına çevrilib gedirik. Bax, misal üçün, qabaqlar biz jurnalistlərin, fərqli düşünən insanların toplaşdığı müxtəlif məkanlar var idi. Filan qəzetin redaksiyası, nə bilim, beşməkan jurnalın çayxanası, iks partiyasının qərargahı, gənclərin kafesi və sairə. İndi müxtəlif repressiyalar üzündən - siyasi, iqtisadi təzyiqlər - bunların hamısı bağlanıbdır. Bəzisini dibindən söküblər, daşı daş üstdə qalmayıb. Həmfikirlərimizin qaça biləni qaçıb, qaça bilməyənini tutub qazamata salıblar. Nəticədə biz də olmuşuq bayırda ev dustağı. Bu, oksümoron deyil, həyat həqiqətidir. *(Oksimoron - zidd anlayışların bir ifadədə cəmləşməsidir. Misal üçün, soyuq ocaq, ölü can, yeniləşən Azərbaycan və sairə).*

Arada dükan-bazara çıxmaq, nə bilim, uşağı parka aparmaq hələ azadlığa dəlalət etmir. Çünki ev dustaqlığının hüquqi prosedurunda elə sutkada bir-iki saat küçədə gəzmək imkanı da nəzərdə tutulurmuş.

O cümlədən azərbaycanlıların hansısa kontora, məktəbə, xəstəxanaya gedib-gəlməsi azadlıq sayılmır. Biz millət olaraq ev dustağıyıq. Burada ev həm də simvoldur. Biri evlənib dustaq olur, başqası evlənməyib. Biri hökumətdən ev alıb özünü tora salıb, başqası ala bilməyib həmişə bunu fikirləşərək dustaqdır. Nəsə, çox fəlsəfəyə getməyək, yoxsa bütün planeti ev dustağına çevirəcəyik. Qayıdaq Mehman müəllimin yanına. Ta keçib, bir simvol da Mehman müəllimin adından qoşaq. Onun adı qonaq anlamını verir. Qonağı ev dustağı yapmaq isə bizim tarixi adətlərimizə yaraşmaz. Biz qonağa həmişə evin ən yaxşı otağını ayıran millət olmuşuq.

Düzü, xəbərləri çox izləmədim, ümidvaram hər kəs dünənki hadisələrdən sevindiyini bəyan eləmişdir, ABŞ səfiri isə daha narahat olmamağa söz vermişdir. Əslində dünən doğrudan nəsə qəribə gün idi. Bilmirəm 11 sentyabrın havasında nə var idi, demokratik addımlar dalbadal atılırdı, hətta gorbagor Bin Laden bu havanı udsa bəlkə 16 il qabaq o qələti eləməzdi. Lapşini əfvə salırdıq, Nardaran kəndinin yarısını türmədən buraxdılar, Mehman müəllimi də ta bilirsiniz. Bəlkə də Günəşin Yerə yaxınlaşması və Ayın burcutması haqda o məşhur Vatsap mesajlarının təsiri idi. Bir gündə o qədər demokratik addım atdıq ki, hətta arada Avropadan, Amerikadan arxamızca qışqırıq qopmuşdu, deyirdilər yavaş gedin, sizə çata bilmirik.

Ancaq millət gərək bundan çaşmasın, şadlığına şitlik eləməsin. Sevinməliyik, lakin müəyyən qədər. Çünki bu iş belə qalmayacaqdır şübhəsiz. Yenə hansısa "Mehman" tutulmalıdır. *(Biri hələ də türmədədir - bloqçu Mehman Hüseynov. Dəli şeytan deyir 12 sentyabrda da onu əfvə salasan, dünya sevindiyindən Qarabağı qaytara).* Kimsə tutulmasa bəs biz demokratiya yolunda necə addımlayarıq? ABŞ bizim hansı hərəkətimizi alqışlayar, Avropadan gələn məruzəçilər kürü yaxmacını nəyə görə alarlar? Bu proses bizim milli "Cırtdan" nağılında əksini tapıbdır. Cırtdan div müəllimə deyirdi ki, nənəm mənə yatmazdan öncə yaxmac verirdi.

Deyəsən orda qayğanaq idi, ancaq yola verin getsin. Ev dustağında səhv tutmazlar. Üstəlik, gecə qayğanaq yemək Cırtdanın səhhətinə ziyandır. Sonra uşaq böyüməz. Sonra gəl Cırtdana verilən işgəncələr üzrə hesabatın rüşvətini ödə...



# Kreml İrəvanı Bakı ilə hədələdi - "Bu addımı atsanız..."

## Ermənistanın Putin layihələrindən çıxmaq təşəbbüsünə Moskvadan sərt reaksiya gəldi: "Türkiyə və Azərbaycanla üz-üzə qalacaqsınız, əgər..."; düşmən ölkədə yeni etiraz dalğası başlayır; erməni müxalifətçi: "Sərkisyanın yeri həbsxanadır"

**Ermənistanda müttəfiq Rusiyaya qarşı etimadsızlıq ab-havası davam edir. NATO-nun Gürcüstandakı son hərbi təlimlərində iştirakda işğalçı ölkənin Kremlin təzyiqi ilə rüsvayçı şəkildə imtinasından sonra bu ovqat bir az da güclənib. Təbii ki, daxildəki narazılıqların bir hədəfi də Ermənistanın indiki hakimiyyəti, onun başında duran Serj Sərkisyandır. Ölkədəki müxalif və müəyyən mənada Qərbə bağlı çevrələr S. Sərkisyan iqtidarını qorxaqlıqda, hətta satqınlıqda ittiham edirlər.**

Bu xüsusda parlamentdəki "Yelk" blokunun Ermənistanın Avrasiya İqtisadi Birliyindən çıxmaq barədə bugünlərdə parlamentə təqdim elədiyi qanun layihəsi diqqət çəkir. Blok üzvləri əmindirlər ki, həmin addımla Ermənistan heç olmasa, bir azca Rusiya qarşısında müstəqil xarici siyasət kursu aparmaq iqtidarında olduğunu nümayiş etdirə bilər. Lakin belə təkliflər çətin ki, reallaşsın. Olsa-olsa bu yolla vassal Ermənistan Moskva ilə hansısa bazarlığa ümid edə bilər - o da əgər Rusiya istəsə...

*****

Yeri gəlmişkən, Ermənistanın Putin layihələrindən, xüsusən də Avrasiya İqtisadi Birliyindən çıxmaq haqda yeni qanunverici təklifə artıq Moskvadan reaksiya gəlib. **Rusiyadakı "Regnum" informasiya-analitik saytının baş redaktoru, Kremlə yaxınlığı ilə tanınan politoloq Modest Kolerov** təklifə yetərincə sərt münasibət ortaya qoyub. Maraqlıdır ki, Kolerov "Yelk"in təklifinin arxasında elə Sərkisyan hakimiyyətinin özünün dayandığına açıq işarə də vurub.

"Mən əminəm ki, "Yelk" gələcək hakim koalisiyanın üzvüdür. "Yelk" - hakimiyyət və ya hakimiyyətyönlü layihədir. Ona görə də biz onun bəyanatlarını diqqətlə izləməliyik". Musavat.com-un məlumatına görə, bu barədə o, 1 in.am erməni nəşrinə açıqlamasında söyləyib.

**Politoloq daha sonra deyib:** "Mən onların bəyanatlarını diqqətlə izləyirəm və deyirəm: Avrasiya İqtisadi Birliyindən çıxmaq istəyirsizmi? Çıxın. Heç kim sizinlə bazarlıq eləmək fikrində deyil. Bunu başa düşmək lazımdır - hazırkı şərtlərdə heç kim sizinlə bazarlığa hazırlaşmır. Mən yalnız bunu söyləyə bilərəm".

**Erməni jurnalistin "O halda Rusiya-Ermənistan münasibətlərinə xələl gəlməz ki" sualına Kremlə yaxın ekspert belə cavab verib:** "Məsələ ondadır ki, ikitərəfli Rusiya-Ermənistan münasibətləri bir-birindən fərqli bir neçə amildən ibarətdir. Bilirsiniz ki, hərbi saha iqtisadi sferadan asılı deyil. Ancaq mən əminəm ki, iqtisadi əlaqələr dağılandan sonra 102 saylı Rusiya hərbi bazasının Gümrüdən çıxarılması məsələsi qoyulacaq".

*****

Kolerov onu da əlavə edib ki, Ermənistan Avrasiya İqtisadi Birliyindən çıxandan dərhal sonra Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilə də (KTMT) üzülüşməli olacaq. Bu isə artıq Ermənistanı həm də təhlükəsizlik faktoru ilə təhdid eləmək, hədələməkdir. Çünki işğalçı ölkə məhz ərazisindəki Rusiya hərbi kontingentinə arxayın olaraq Türkiyə və Azərbaycana qarşı özünü güvəndə hiss edir. Hazırda Ermənistanın Türkiyə ilə sərhədlərini də rus hərbçilər (FTX) qoruyur. Gümrü bazası bağlanarsa və Ermənistan KTMT-dən çıxarılarsa, o halda düşmən ölkə Azərbaycan və Türkiyə qarşısında "əliyalın" və tam müdafiəsiz duruma düşəcək. Bu isə ermənilərin ən pis röyası olardı.

**Xatırladaq ki, Kolerov az öncə Ermənistanın NATO-ya, Qərbə qarşı son reveranslarına, o cümlədən NATO təlimlərində fəal iştirakına qəzəbli reaksiya verməmişdi. Rusiyalı politoloq 1in.am erməni portalına müsahibəsində həm təhdid, həm də kinayəli şəkildə belə demişdi. Sitat:** "Ermənistan NATO ilə həmrəylik içindədir. Ancaq bu həmrəylik Türkiyə və Azərbaycanla birgə iştirak fonunda baş verir. Və əgər Ermənistan Türkiyə və Azərbaycanla birgə belə layihələrdə iştirak edirsə, bu, o deməkdir ki, Rusiya ilə ortaq hərbi qruplaşma ona lazım deyil. O zaman qoy İrəvan Türkiyə və Azərbaycanla barışmaq üçün NATO-nu çağırsın".

*****

Bu arada işğalçı ölkədə Sərkisyan rejiminə, daha doğrusu, Serj Sərkisyanın baş nazirliyinə qarşı növbəti etiraz kampaniyası başlayıb. Musavat.com-un erməni qaynağına istinadən verdiyi məlumata görə, bu haqda dünən keçirdiyi mətbuat konfransında müxalif "Erkir Sirani" partiyasının lideri Zarui Postancyan deyib. O, mübarizənin Ermənistanın bütün iri şəhərlərini əhatə edəcəyini söyləyib.

**Keçmiş deputatın sözlərinə görə, bu mübarizə 2018-ci ilin aprelinə - Sərkisyanın prezident postunda səlahiyyət müddəti bitənədək davam eləməlidir:** "O, yeni baş nazir olmamalıdır. Onun yeri əslində cəzaçəkmə müəssisəsidir. Təkcə onun yox, bütün bu illər ərzində ölkədə hər şeyi iflas edənlərin yeri oradır. Onlar təkcə siyasəti boşa çıxarmayıblar, həm də cinayətkardırlar. Bugünkü 1,5 milyonluq emiqrasiya, ölkədən qanunsuz şəkildə çıxarılan milyardlar - əlbəttə ki, bağışlanmazdır".

Postancyan həmçinin Sərkisyanın ötən ilin aprelindəki "4 günlük müharibə"nin və çoxsaylı qurbanların əsas baiskarı olduğunu söyləyib. "Və qırılan bu gənc həyatlar... 20 yaşlı gənc oğlanlar öz həyatları bahasına fəlakətin qarşısını aldılar... Biz həm də buna görə onları məsuliyyətə cəlb eləməliyik".

Müxalif siyasətçi Sərkisyana qarşı mübarizədə erməni diasporunun fəal iştirakının vacibliyini də xüsusi qeyd edib.

*****

Belə görünür ki, gələn ilin apreli yaxınlaşdıqca Ermənistanda daxili siyasi ehtiraslar da artacaq. Bu ehtiraslar və çəkişmələrin nə ilə sonuclanacağı isə şübhə yox ki, ilk növbədə Moskvanın proseslərə nə dərəcədə müdaxilə edəcəyindən asılı olacaq. Azərbaycanla müharibə vəziyyətində olduğundan Ermənistandakı prosesləri sövq-təbii biz də diqqətlə izləməli, Kremlin işğalçı ölkə ilə münasibətlərinə edilən düzəlişlərə çevik və adekvat reaksiya verməliyik.

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 187 (6801) 12 sentyabr 2017

**Azərbaycan dövləti daha bir ilkə imza atdı. Belə ki, Azərbaycan-İsrail münasibətlərində çoxdan gözlənilən səfərlərdən biri baş tutdu. Sentyabrın 11-də müdafiə naziri, general-polkovnik Zakir Həsənov İsrail dövlətinin müdafiə naziri Aviqdor Libermanın dəvəti ilə Təl-Əviv şəhərinə səfər edib.**



# Azərbaycan-İsrail əlaqələrində düşmənə şok yaşadan gəlişmə

## Prezident İlham Əliyev Lapşini azad etdi; Zakir Həsənov Təl-Əvivə səfər etdi; erməni lobbisinin Bakı-Təl-Əviv münasibətlərini pozmaq cəhdi iflasa uğradı...



Aleksandr Lapşin

Müdafiə Nazirliyindən verilən məlumata görə, rəsmi səfər çərçivəsində Z.Həsənovun İsrailin müdafiə naziri ilə görüşü, Silahlı Qüvvələrin Komanda və İdarəetmə Mərkəzini, müdafiə sənayesi sahəsində fəaliyyət göstərən müəssisələri ziyarət etməsi və digər tədbirlərdə iştirakı nəzərdə tutulub. Azərbaycan-İsrail hərbi əlaqələrinin kifayət qədər inkişaf etdiyi şəraitdə belə bir səfərin reallaşması şübhəsiz ki, əlaqələrə dinamika gətirəcək. Keçən ilin aprel döyüşlərində Ermənistan ordusuna vurulan zərbələrdə İsrail istehsalı olan silahların öz sözünü deməsini hətta düşmən özü də dəfələrlə etiraf edib. Odur ki, son aylarda koordinasiyalı və sistemli şəkildə Bakı-Təl-Əviv əlaqələrinin korlanmasına yönəlik dezinformasiyaların Ermənistan və İsrail mətbuatındakı ermənilərin əli ilə yayılmasının şahidi olmuşuq. Hətta vəziyyət o yerə çatdı ki, İsrailin Bakıdakı səfirliyi yayılan dezinformasiyaların təxribat olduğunu, iki ölkənin münasibətlərinə təsir etməyəcəyini bəyan etməli oldu. Ermənistan İsrail mütəxəssislərinin guya aprel döyüşlərində iştirakından tutmuş digər iddialara qədər bir sıra saxta xəbərləri tirajlamaqla Bakının Təl-Əvivdən yeni silah-sursat almasını əngəlləmək üçün açıq şantaj siyasəti yeridirdi. Ancaq iki müttəfiq ölkənin əlaqələrini möhkəmləndirmək istiqamətində atdığı növbəti addımı işğalçı ölkəyə və onun havadarlarına tərs şapalaq kimi də dəyərləndirilə bilər. Bu, sirr deyil ki, Bakının İsraildən müasir silahları alması silah ixracında maraqlı olan ölkələri, həmçinin Ermənistanı müdafiə edən qüvvələri çox narahat edir. Bu mənada müdafiə naziri səviyyəsində həyata keçirilən səfər, Azərbaycan-İsrail əlaqələrindəki gəlişmə düşmənə şok yaşadan olaydır və ölkəmiz üçün çox önəmlidir.

**Deputat, Milli Məclisin Təhlükəsizlik, müdafiə və korrupsiyaya qarşı mübarizə komitəsinin üzvü Zahid Oruc "Yeni Müsavat"a bildirdi ki, Cənubi Qafqaz ölkələri vahid geopolotik məkan deyil və burada hər bir ölkənin uzaqgedən fərqli hərbi strategiyası var:** "Bildiyiniz kimi, Birləşmiş Ştatlar və digər NATO ölkələri Azərbaycana silah satışını qadağan ediblər. Regional təhlükəsizliyə xələl gətirməmək və hərbi balansı qorumaq adı altında faktiki olaraq biz ötən illər ərzində Ermənistanın Polşa, Çin, Ukrayna, Rusiya və digər dövlətlər tərəfindən sürətlə silahlandırılmasının dayandırılmadığının şahidi olmuşuq. Üstəlik, Qərb silahları da açıq-gizli kanallar vasitəsilə Qarabağa daşınmaqda davam edib. Hərçənd bir çoxlarına elə gəlir ki, geopolitik oyunun tələblərinə görə supergüclər bölgənin silahsızlaşdırılmasında maraqlı olmalıdırlar. Ona görə də Zakir Həsənovun İsrailə səfəri mühüm dövlət əhəmiyyəti daşımaqla bərabər, həmçinin regional çəkiyə malikdir".

**Z.Oruc qeyd etdi ki, son aylar ərzində Azərbaycan-İsrail münasibətlərini korlamaq üçün hansı təxribatlara əl atıldığını çoxları bilir:** "Erməni mediasının gündəmi Qərb dövlətlərinin Azərbaycanın hərbi militarizminə qarşı sərt kvotaların və qadağa tədbirlərinin işə düşməsi haqda saxta məlumatlarla doludur. Halbuki Azərbaycan İsrail aviasiyası vasitəsilə ən müasir texnologiyaları almaqda davam edir və dəyəri 4 milyard dollardan artıq olan hərbi bağlaşmalar yüksək səviyyədə icra olunur. Azərbaycanın hərbi gücünü artıran və son aprel döyüşlərində uğurla tətbiq olunan pilotsuz aparatların alınması davam edir. Eyni zamanda kommunikasion və elektron kəşfiyyat qurğuları da yerləşdiyimiz coğrafiyada mühüm hərbi əhəmiyyətə malikdir. Razılaşın ki, SİGİNT VƏ ELİNT sistemləri gələcək müharibələrin aparılmasında fərqli bir səviyyə və standartlar deməkdir. Onu təlimlər vasitəsilə xarici mütəxəssislərdən öyrənməklə düşmənin elektron qurğularının blok edilməsi və məsafədən idarə olunan hərbi diversiyaların həyata keçirilməsi mümkündür. Nəzərə alın ki, Ermənistan Rusiya tərəfindən verilən 200 milyon dolları da nağd şəkildə almayıb və müasir elektron qurğuların yenidən silahlanmada tətbiqi burada yaxın perspektivdə görünmür. Eləcə də hava hücumundan müdafiə sistemləri olan SPİKE-lar bir neft ölkəsinin-böyük enerji kommunikasiyalarına dayanan Azərbaycanın təhlükəsizliyinin möhkəmləndirilməsində fərqli bir zirvədir".

**Deputat bir məqamı da xüsusi vurğuladı:** "Özü də burada söhbət Bakını növbəti müharibənin hədəfinə çevirmək istəyən İrəvanın planlarını önləməkdən getmir. İsrail-Azərbaycan əlaqələri regional sabitlik üçün mühüm amildir və heç kəs İranla Ermənistanın əlaqələrini Təl-Əvivə Tehrandan verilən cavab kimi nəzərdən keçirmir. Bildiyiniz kimi, İran Qafqazda daha böyük ölçüdə iqtisadi və siyasi cəhətdən iştirak etməyə can atır. Azərbaycanın İsraillə əlaqələri Tehrana qarşı yönəlməsə də bizim Təl-Əvivlə strateji münasibətlərimiz ölkəmizi mühüm beynəlxalq aktyora çevirir. Hərçənd bunu təhlükə kimi xarakterizə etməyə çalışanlar da var. Hətta İsrailin Azərbaycan vasitəsilə bir İslam ölkəsi ilə strateji dostluğun mümkünlüyünü qaynar ərəb dünyasına təqdim etməklə, lakin eyni zamanda Azərbaycandan İranın müxtəlif planlarına qarşı da sipər kimi təqdim edənlər mövcuddur". **Z.Oruc bildirdi ki, bütün mülahizələrə baxmayaraq, Azərbaycan İsraillə hərbi müttəfiqlik yolunda yeni mərhələyə daxil olur:** "Bəli, heç bir müsəlman ölkəsinin mənafelərinə qarşı getmədən, müstəqil qaydada regional sabitlik platforması qurulur. Qafqazda İsraili təhlükə kimi qəbul edən çox az tərəf var. Qlobal gücləri növbəti toqquşmalardan çəkindirən və Təl-Əvivə qarşı çıxmaqdan daşındıran səbəblərdən biri də budur".

**"Müdafiə naziri Zakir Həsənov Polşanın ardından İsrailə getdi. Bu, Azərbaycan-İsrail münasibətləri tarixində yeni səhifədir. İsrailin prezidenti, baş naziri və xarici işlər naziri dəfələrlə Azərbaycanda rəsmi səfərlərdə olublar, ancaq eyni səfərləri Azərbaycan rəsmiləri İsrailə həyata keçirməyiblər. Hətta Heydər Əliyevin hakimiyyəti dövründə mərhum müşavir Vəfa Quluzadə İsrailə gizli səfər etmişdi ki, cənub qonşumuz qıcıqlanmasın".**

**Bu fikirlər isə politoloq Elxan Şahinoğluna məxsusdur. Ekspert qeyd etdi ki, Azərbaycan İsraildən milyardlarla dollar dəyərində silah və sursat alır, üstəgəl, erməni lobbisi son zamanlar iki ölkə arasındakı hərbi əməkdaşlığa kölgə salmaq üçün İsrail mətbuatında saxta faktlara əsaslanan məqalələr yayınlayır:** "Demək, istər-istəməz Azərbaycan rəsmilərindən kimsə İsrailə səfər edib əməkdaşlığın mövcud durumunu və bu prosesə mane olmaq istəyən qüvvələrin qarşısının alınması mövzusunu müzakirə etməli idi. İki ölkə arasında əməkdaşlığın hərbi hissəsi ağır gəldiyindən müdafiə nazirinin səfərinə üstünlük verilib. Bu səfər prezident İlham Əliyevlə razılaşdırılıb. Ən maraqlısı odur ki, İlham Əliyev Astanada İran prezidenti Həsən Ruhani ilə görüşüb, onun gələn ay Azərbaycana səfərini müzakirə edərkən, müdafiə nazirini İsrailə göndərdi. Düşünürəm ki, İrandakı rejimin nə deməsindən asılı olmayaraq, rəsmi Bakı bu yolla İsraildə səfirliyin açılması prosesini də sürətləndirə bilər. Onsuz da Tehran Azərbaycanla əməkdaşlığın miqyasını azaltmayacaq, bu onun da xeyrinədir, ortada çox böyük regional layihələr var".

Müdafiə nazirinin İsrailə səfər etdiyi gün Azərbaycan prezidenti İlham Əliyev blogger Aleksandr Lapşini əfv edib. Bu məsələ də diqqətdən qaçmamalıdır. Üç ölkənin vətəndaşı olan Lapşin Qarabağa qanunsuz səfərinə görə həbs edilən-dən sonra onunla daha çox Rusiya maraqlansa da, Azərbaycan onu İsrailə təhvil vermək qərarına gəldi. Bu da əlaqələrin müsbət axarda inkişafına öz töhfəsini verəcək addımdır.

❑ **Cavid TURAN**

# Düşməni öz üsulu ilə əzmək



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Qarabağa dair daha bir yüksək səviyyəli görüş nəticəsiz bitdi: Moskvada Azərbaycan, Rusiya və Ermənistanın dini liderlərinin görüşündə simvolik anlaşma belə əldə olunmadı. Əslində hansısa nəticə gözlənilmirdi də. O zaman sual ortaya çıxır ki, belə görüşlər kimə və nəyə lazımdır? Dağlıq Qarabağ konfliktinin həllində əsas söz sahibi olduğunu bir daha göstərmək istəyən Rusiyayamı?**

Ola bilər. Amma daha bir hədəf güman ki, Qarabağ münaqişəsinin dini mahiyyət daşımadığını dünyaya nümayiş etdirmək idi - hansı məqam ki, hörmətli Şeyxin dilindən məxsusən səsləndi. Bu və digər dərəcədə eyni yanaşma erməni katolikosu və Rusiya patriarxı Kiril tərəfindən də bəyan edildi.

Ancaq hamı bilir ki, Qarabağ - sırf dinlərarası ixtilaf olmasa da, din amilindən xali də deyil. Ermənistanın indiyədək işğalçı kimi tanınıb, ona sanksiyalar tətbiq olunmamasının bir səbəbi məhz Avropa və ABŞ-da ona bəslənən gizli-açıq xristian təəssübkeşliyi ilə bağlıdır. Təsadüfi deyil ki, Dağlıq Qarabağa qanunsuz səfər edənlərin arasında Avropadakı xristian-demokrat ideologiyasının daşıyıcıları da az deyil.

Hiyləgər ermənilər, əlbəttə ki, din amilini əsla boyunlarına almaz, qabartmazlar. Çünki 1.5 milyardlıq müsəlman aləmində də özlərinə dost-tərəfdaş axtarırlar. Və tapırlar da əfsus ki.

"Məscidlərimizi dağıdan Ermənistan müsəlman ölkələrinin dostu ola bilməz". Bu sözləri iki gün öncə Azərbaycan prezidenti İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Qazaxıstan toplantısında bəyan edib. Ancaq nə yazıqlar ki, məscidlərimizi dağıdan Ermənistan müsəlman ölkələri arasında da özünə dost-simsar tapa bilib - İran timsalında. Cənub qonşumuz nəinki işğalçının köhnə dostlarındandır, üstəlik, onun müttəfiqi və xilaskarıdır, sonuncudan ötrü "nəfəslik" rolundadır.

Dəfələrlə yazmışıq, bir daha yeri var qeyd edək ki, əgər müsəlman İran da müsəlman Türkiyə və Pakistan kimi təcavüzkar Ermənistana təcavüzkar kimi münasibətdə olsaydı, sərhədləri bağlı saxlasaydı, Qarabağ məsələsi çoxdan həllini tapar, bunca günahsız müsəlman, körpə Zəhralar qurban getməzdi. Çünki o halda Ermənistan birdən-birə 3 əsas qonşusunun - Azərbaycan, Türkiyə və İranın blokadasına tab gətirə bilməzdi.

Bu mənada islam ölkələrinin əsas təşkilatı kimi İƏT-in üzərinə İranla bağlı xüsusi məsuliyyət payı düşür. Doğru, qurum Ermənistanı işğalçı kimi tanıyıb, ötən il Qarabağla bağlı "Təmas qrupu" yaradıb. Amma və lakin İran kimi iri müsəlman dövləti işğalçı ölkənin himayədarı kimi çıxış edirsə, bu qrup, bütövlükdə təşkilatın özü nə edə bilər ki? Bu, elə İƏT-in Ermənistanla bağlı məlum qərarının sabotaj edilməsi deyilmi?

Nədən İƏT Fələstin məsələsində olduğu kimi, Qarabağ məsələsində də qətiyyət göstərməsin? Məsələn, Tehranı xəbərdar eləməsin ki, İran qurumun işğalçı kimi tanıdığı Ermənistanla əlaqələri dayandırsın? Əks halda təşkilatdan xaric edilsin bu ölkə. Yoxsa ki, İran bir yandan Ermənistanı təcavüzkar kimi tanıyan sənədə səs verir, o biri yandan da həmin təcavüzkara qucaq açaraq, geniş əlaqələr qurur - Fələstin məsələsindəki prinsipiallığa tam əks bir mövqe tutur Tehran.

Ermənistanın isə onsuz da xristian dünyasında da gizli-açıq havadarları var. Əlbəttə ki, burada erməni lobbisinin "əməyi" danılmazdır. Daha bir fakt: Ermənistan 2014-cü ildə Krımın Rusiyaya zorla birləşdirilməsini dəstəkləyən, BMT-də Ukraynanın ərazi bütövlüyü əleyhinə səs verən 9 ölkədən biridir. Azərbaycan isə əksinə, o zaman da, indi də Ukraynanın yanında yer alıb. Di gəl, P.Poroşenkonun hökumətində bu gün nə az, nə çox - iki erməni nazir təmsil olunub: daxili işlər və infrastruktur nazirləri *(Avakyan və Omelyan)*. Azərbaycanlı təbii ki, həmin kabinetdə yoxdur.

Bizcə, bu, tək erməni fərasətinin məhsulu deyil. Eyni zamanda gizli xristian təəssübkeşliyinin növbəti təzahürü, təntənəsidir. Qərbin, ABŞ-ın Krıma görə Rusiyaya qarşı sanksiyalar tətbiq edib, işğalçı Ermənistana yardımlar ayırmasının, onu himayə eləməsinin qayəsində də eyni motiv dayanır - din və lobbi amili...

***

Azərbaycan ətrafında son baş verənlər bir daha göstərdi ki, biz əslində işğalçı Ermənistandan qat-qat çox, erməni lobbisi və onun güclü şəbəkəsi ilə üz-üzəyik. Odur ki, beynəlxalq miqyasda düşməni onun öz üsulu ilə əzməyin təklif edənlər tam haqlıdırlar. Qarabağı qaytarmağın yolu həm də erməni lobbisinin gücünü neytrallaşdırmaqdan keçir - hansı yolla olur-olsun.

YENİ MÜSAVAT
N 187 (6801) 12 sentyabr 2017

**“”Azərsu" müşaviri Faiq Kazımovun qanunsuz əməlləri ilə bağlı vəkilim Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə müraciət ünvanlayıb. Faiq Kazımovun qanunsuz göstərişinə əsasən, rəhbəri olduğum təsərrüfat obyektinin suyu kəsilib. Heyvandarlıq, istixana, istehsal sexində böyük problemlərimiz yaranıb, böyük zərər çəkmişik. Məhkəməyə də müraciət üçün sənədləri hazırlayırıq". “Fidan” şirkətinin sahibi Ağaisa Mahmudov belə deyir.**

# “Azərsu” müşaviri kefləndi, böyük bir təsərrüfatı susuz qoydu - sensasion iddia

## **Ağaisa Mahmudov:** “Faiq Kazımov bu göstərişi içki məclisində verib”

Onun rəhbəri olduğu şirkət Qaradağ rayonu, Bakı-Hacıqabul şosesinin 75-ci kilometrliyində yerləşən təsərrüfat obyektində ümumilikdə 500-ə yaxın işçi çalışır. Zavodda kənd təsərrüfatı təyinatlı məhsulların istehsalı, satışı, yəni alkoqollu və alkoqolsuz içkilərin istehsalı, topdan və pərakəndə satışı, konserv məhsullarının istehsalı, kompot və təbii şirələr, konyak, etil spirti, şərablar istehsalı və satışı həyata keçirilir.

**Sahibkar deyir ki, obyektin daim su ilə təchizatı ən vacib əhəmiyyət kəsb edən faktordur:** “Su olmasa, bütün istehsalat dayanır. Hazırda mən əhalidən meyvə qəbul edə bilmirəm ki, meyvə kompotu istehsal edim. Müqavilə bağladığım xarici şirkətlərə də mal göndərə bilmirəm, hamısının səbəbkarı isə Faiq Kazımovdur”.

**A.Mahmudovun sözlərinə görə, avqustun 23-də “Azərsu” ASC-nin Qaradağ rayonu Sukanal İdarəsinin əməkdaşları şirkətə məxsus olan və zavodun su ilə təchiz edilməsində əsas rol oynayan su borularını kəsərək yararsız vəziyyətə salıblar:** “”Azərsu” ASC-nin əməkdaşları hansı əsasla, nəyə görə su borularının kəsilməsi barədə məlumat verməyiblər. Digər tərəfdən, su istismarı ilə bağlı yol verilən pozuntulara dair heç bir akt, protokol tərtib etmədilər. Sadəcə, su borularını kəsib getdilər. Nəticədə bütün zavodun fəaliyyəti, istehsalat dayandı. “Azərsu” ASC-yə heç bir borcumuz olmadığı, hər hansı pozuntu ilə bağlı protokol və ya akt tərtib edilmədiyi halda, şirkətə məxsus su boruları necə kəsilə bilər axı?"




**A.Mahmudov deyir ki, ölkə rəhbərliyinə, hüquq-mühafizə orqanlarına müraciətlərindən sonra əraziyə “Azərsu” ekspertləri gedib:** “Bundan əvvəl isə Qaradağ Rayon Sukanal İdarəsinin əməkdaşları ərazidə olublar. Müvafiq yoxlama aparılıb və su xətlərinin qanunsuz kəsilməsini deyiblər. Biz də araşdırdıq, aydın oldu ki, Faiq Kazımov şəxsi maraqlarından çıxış edərək istehsalat sahəsinə su verilməsinin dayandırılması üçün qanunsuz göstəriş verib. Bu göstərişi o, bir içki məclisində verib. İlk olaraq Faiq Kazımov 43 min manat istədi. Daha sonra bir qonaqlıqda 43 minin əvəzinə 25 min manat istədi. Tələbi qanunsuz idi deyə boş verdim. Sonradan da Qaradağ rayon Sukanal İdarəsinin əməkdaşlarına göstəriş verib ki, zavoda məxsus olan su boruları kəsilsin. Bu adam özü hüquqşünasdır, 2 ay əvvələ qədər ”Azərsu"da hüquqşünas olub. Müşavir vəzifəsinə isə əmisi oğlu Rövşən Kazımovun işdən çıxarılmasına yaratdığı əsas üzərindən keçib. Bundan sonra da özünün maraqlarını uyğun hərəkətlər etməyə başlayıb. Barəmdə “Azərsu” rəhbərliyinə yanlış məlumat verib. Suyu kəsəndən sonra məsələ böyüdü, o da məsuliyyəti Qaradağ Su Təchizat İdarəsinin üzərinə atmaq istədi. Amma alınmayacaq. Çünki onların bu məsələdə günahı yoxdur. Vəkillərim Faiq Kazımovun qanunsuz əməllərinin araşdırılması üçün Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə də müraciət ediblər. Bu adam şəxsi maraqlarından çıxış edərək şirkətimin suyunu kəsdirib. Suyu kəsəndən 1 ay sonra mənə hesab faktura yollayıb ki, 42 min manat borc var. Halbuki qanuna görə, “Azərsu” əməkdaşları əgər qanunsuzluq qeydə alırlarsa, akt tərtib etməli, cərimə yazmalı və 2 ay həmin cərimənin ödənməsi üçün vaxt verməlidirlər. Amma Faiq Kazımov suyu heç bir xəbərdarlıq etmədən kəsib və 1 ay sonra hesab-faktura yollayır ki, bunu ödə. Belə də qanunsuzluq, özbaşınalıq olar?"

**❑ E.HÜSEYNOV**

**P.S.** *Yazıda adı hallanan hər kəsi dinləməyə hazırıq.*

# Süni körpə qidaları uşaqlar üçün təhlükəlidirmi?




**Vaqif Qarayev:** “Təbabətdə ilkin süd deyilən bir anlayış da var”
**Eyyub Hüseynov:** “O körpə qidasının ki, tərkibində soya komponenti var...”

**Uşağını ana südü ilə qidalandıran analarla yanaşı, bunun əksini edənlər də var. Bəzən isə analar körpələrinə ana südü ilə yanaşı uşaq qidalarından da verirlər. Bu gün satışda müxtəlif növ və müxtəlif qiymətə uşaq qidaları mövcuddur.**

Bu qidalar barədə zaman-zaman müxtəlif fikirlər səsləndirilir, onların uşaqlar üçün zərərli olduğu deyilir. Hətta bir sıra uşaq qidaları da var ki, onların tərkibində soya olduğu, bunun isə GMO bir komponent olduğu deyilir ki, bu da körpə uşağın orqanizmi üçün təhlükəli hesab olunur. Bir sıra psixoloqlar uşaq qidalarının marketlərdə əl çatan yerdə saxlanılmasını məsləhət görmür. Çünki bu, qidaları görən və süd verən analara psixoloji təsir göstərir və onların südü azalır. Belə olan təqdirdə isə yalnız ana südü ilə doymayan uşaqlara bu qidalardan almaq məcburiyyəti yaranır. Baş çəkdiyimiz marketlərdə uşaq qidaları əl çatan və diqqət cəlb edən yerlərdə satılırdı. Onların qiyməti isə 3 manatdan başlayıb 65 manatadək dəyişir. Uşaq qidaları arasında daha çox satılanlar “Humana”, “Cabrita”, “Nutrilon”, “Heinz”, “Nestle”, “Aquşa”dır. Bu qidaların bəzilərinin tərkibində keçi südü var ki, bu da xeyirli sayılır.

Maraqlıdır, ümumiyyətlə, uşaqlar doğulduğu vaxtdan neçə müddət ərzində ana südü ilə qidalanmalıdır? Ümumiyyətlə, satışda olan uşaq qidaları zərərlidirmi?

**Pediatr Vaqif Qarayev uşaq üçün yeganə qidanın ana südü olduğunu dedi:** “Uşaq üçün yeganə qida ana südü olmalıdır və bu mütləqdir. Bəzən deyirlər ki, ana südü 1 yaşa qədər, bəzən isə uşaq nə qədər istəyirsə, o qədər verilməlidir. Bu bir az mübahisəlidir. Ancaq uşaq heç olmasa 1 yaşa qədər ana südü içməlidir. Amma ana südünün verilməsində obyektiv səbəblər varsa, tutaq ki, anada açıq vərəm və yaxud da uşaqda anadangəlmə müxtəlif qüsurlar var, ananın döşünü götürə bilmir və s. olarsa, əlavə uşaq qidalarından istifadə edilə bilər. Hansı uşaq yeməyinin yaxşı olmasına gəlincə isə uşaq hansı uşaq yeməyini götürürsə, deməli, o yaxşıdır. Bütün uşaq qidalarının qutularının üstündə eyni tərkib, eyni reklam, eyni təriflərdir. Ona görə də onların bir-birindən elə də fərqi yoxdur. Bir daha təkrar edim ki, əgər ana südü varsa, süni qarışıqların əleyhinəyəm. Bizim bəzi, xüsusən dövlət doğum evlərində həkimlər ananın südü ola-ola süni qarışıq təklif edirlər ki, bu da yolverilməzdir. Amma südü olan analar bu cür süni yeməklərdən imtina edir. Bəzən isə analar özləri uşaqlarına ana südü verməkdən imtina edir. Təbabətdə ilkin süd deyilən bir anlayış da var. Bunun tərkibi uşağı xəstəliklərdən qorumaq və müqavimətini artırmaq üçün xüsusi inqiridentlərlə zəngindir. Uşağı ana südü ilə qidalandırmaq yalnız qidalandırmaq baxımından yox, həm də mənəvi-psixoloji baxımdan çox vacibdir. Ana ilə təzə doğulan körpənin arasındakı o mənəvi-psixoloji bağların yaranmasında, həm də ananın müxtəlif onkoloji xəstəliklərdən qorunması üçün ana südü ilə qidalandırma çox mühümdür. Həmçinin ana südü uşağı o yaşda tuta biləcəyi bütün xəstəliklərdən qoruyur, müqavimətini artırır”.




**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov isə süni uşaq qidalarının tərkibində soya olduğunu bildirdi:** “Azad İstehlakçılar Birliyi çox saylı dünya konqreslərində iştirak edib və Azərbaycanda ana südü ilə qidalanmanın lobbiçiliyini aparan təşkilatlardan biridir. Çox təəssüf ki, ölkəmizdə ana südü ilə qidalandırma faizi hətta Mərkəzi Avropa ölkələrindən də xeyli geridə qalır. Təxminən 44-45 faiz həcmindədir. Bu çox anormal bir haldır. Uşaqların gələcək həyatı üçün çox qorxulu bir tendensiyadır. Ana südü ilə qidalandırma faizi aşağı olduğu üçün süni qida ölkədə çox sürətlə irəliləyib. Azad bazar iqtisadiyyatından istifadə olunur, pediatrların qida distribüterləri ilə sıx əlaqələri yaradılıb və körpə qidaları ölkədə geniş vüsət alır. Bizə gələn məlumatlara görə, hətta doğum evində uşağa süni qida verilir. Doğum evindən analara da süni qidalar məsləhət görülür. Bu çox ciddi bir problemdir. Azərbaycanda bu məsələlər həddindən artıq dərinə gedib və demək olar ölkə pediatrlarının böyük bir hissəsi, eləcə də doğum evlərinin işçiləri körpə qidası distribüterləri ilə sıx əlaqədədir. Buradan da onlara verilən pul gəlir qidaların üstünə və Azərbaycanda uşaq qidalarının həddindən artıq yüksək qiyməti müşahidə olunur. Azad İstehlakçılar Birliyi çalışır ki, körpə qida distribüterləri ilə pediatrların əlaqələrini kəssin, onlarla əlaqəyə girən doğum evlərini ifşa etsin. Ancaq təəssüf ki, vətəndaşlar tərəfindən bizə informasiya çox az gəlir”.

**E.Hüseynov bildirdi ki, körpə qidalarının keyfiyyətində problemlərin olduğu istisna edilmir:** “Qanunda da göstərilir ki, körpə qidalarının üçüncü ölkədən idxalı qadağandır. Birbaşa istehsalçıdan alınmalıdır. Ancaq biz görürük ki, Azərbaycana 3-cü ölkələrdən uşaq qidaları idxalı baş verir. O körpə qidasının ki, tərkibində soya kompenenti var, bu, GMO kompenentidir. Mən özüm bir dəfə soya südünü içmişəm. Onu bir dəfə içən insan ayrılmaq istəmir. Xəfif şirin dadı olur. Bir sözlə, əhali bilməlidir ki, mümkün qədər körpə qidalarından uzaq durmaq lazımdır. Mən 7 yaşına qədər ana südü içmişəm və 70 yaşım var, bir dəfə olsa üstümə təcili yardım çağırılmayıb”.

**❑ Günel MANAFLI**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 187 (6801) 12 sentyabr 2017

**Bu günlərdə ölkədəki əsas müzakirə mövzularından biri də "26" adlı kafenin bağlanması oldu. Təbii ki, ilkin yayılan fikir bu kafenin "26 Bakı Komissarı"nın adı ilə assosiasiya olunduğu üçün qapadılmasıdır. Kafe sahibi bu məkanın "26 Bakı Komissarları" ilə heç bir əlaqəsi olmadığını, sadəcə, rəqəmin uğurlu olduğunu deyir.**

# 26 və ona kimi olan rəqəmlərin sirri




## Bu, həm tarazlıq, həm də inamın rəmzidir...

Bəli, bu, birinci dəfə deyil. İnsanlar bir çox hallarda maşınlarına nömrə alanda, ya da telefon nömrəsi seçəndə rəqəmləri xüsusi olaraq seçirlər. Bu zaman daxili inam hər şeyin uğurlu olacağını diktə edir. Biz də mövzunun aktual olduğunu nəzərə alıb, rəqəmlərin sirrini öyrənməyə çalışdıq. Məsələn, 26 rəqəmi nəyi göstərir, nə ifadə edir? Onun sirri nədə gizlənib?

**2 - tarazlıq, 6 - inam rəmzidir... o halda 26?..**

Numeroloqlar iddia edir ki, ədədlər yalnız rəqəm və işarələrin ifadə etdiyi kəmiyyət göstəricisi deyil, onlarda başqa bir qüvvə də var. Numerologiya nisbətən son zamanlar tanınsa da, əslində ən qədim elmlərdən biridir. Müəyyən mənada ədədlərin öz dili var, ibtidai qəbilələr bu dili başa düşür və ədədlərin dilində bir-biri ilə əlaqə saxlayırdılar. Qədim əlifbalarda (məsələn, qədim yəhudi əlifbasında) hərflərin də ədədi mənası vardı.

Məlum olduğu kimi, Pifaqor, onun şagirdləri və davamçıları rəqəmlərin sayını azaldaraq 1-9 arasında saxladılar, çünki bu rəqəmlər başlanğıc rəqəmləridir, qalan rəqəmləri onlardan düzəltmək mümkündür. İyirmi əsr keçəndən sonra, məşhur Kornelius Aqrippa 1533-cü ildə nəşr etdiyi "Okkult fəlsəfəsi" əsərində həmin rəqəmləri və onların mənasını verdi.

Xatırladaq ki, elm dünyasında Aqrippanı "rəqəmlərin atası" adlandırırlar. Keçək rəqəmlərin sirrinə:

**1 -** məqsədin rəqəmidir, əlifbanın ilk hərfi olan "A" ilə başlanan hər şeydə aqressivlik və ambisiya formasında təzahür edir.

**2 -** gündüz və gecə kimi əks anlayışların rəqəmidir. Tarazlıq və kontrast mənasında işlənir, müsbət və mənfi keyfiyyətləri birləşdirərək tarazlıq yaradır.

**3 -** dəyişkənlik deməkdir, keçmişin, indinin və gələcəyin rəmzi olan üçbucaqla işarə edilir. İstedad və şən əhval-ruhiyyəni ifadə edir, uyğunlaşmaq rəmzidir.

**4 -** sabitlik və möhkəmlik deməkdir. Onun möhkəmliyi kvadratla - kosmosun tərəfləri, ilin fəsilləri və od, torpaq, hava və su ünsürləri ilə ifadə olunub.

**5 -** son nəticəni səyahət və sınaqlar vasitəsi ilə əldə edən risk və təhlükə deməkdir. Onda sabitliyin olmaması bir tərəfdən inamsızlığa gətirib çıxara bilər, digər tərəfdən bu, ən xoşbəxt, ən gözlənilməz rəqəm sayılır.

**6 -** inam rəmzidir. O, göy qurşağının yeddi rəngini ifadə edərək təbiətlə harmoniyadadır. İdeal rəqəmdir, həm tək, həm də tək rəqəmlərə bölünərək sanki onları birləşdirir.

**7 -** sirli, məchul və görünməz şeyləri öyrənmək və bilmək yoludur. Yeddi əsas planet, həftənin yeddi günü, yeddi musiqi qamması deməkdir. O, məqsədi (1) və harmoniyanı (6) birləşdirərək, onu həqiqi psixoloji rəqəmə çevirən öz simmetriyasını yaradır.

**8 -** maddi uğur rəmzidir. İki kvadratla ifadə olunduğu üçün kamil inam rəmzi sayılır. İki yerə bölünəndə bərabər hissələrə ayrılır (4-4). Yenə bölsən, yenə bərabər hissələrə ayrılacaq (2-2-2-2), bu isə dördqat tarazlıq deməkdir.

**9 -** elementar rəqəmlərin ən böyüyü, uğur rəmzidir. Tam inkişaf etdikdə bütöv bir qrupun cizgilərini birləşdirərək nəzarət fakturuna çevrilir. Doqquz rəqəmi, 3 x 3-ün hasili kimi, dəyişkənliyi irəliyə doğru hərəkətə çevirir.

**Hər dində rəqəmlərin öz izahı var**

İncildə yazılır: "O hər kəsi məcbur etdi, kiçik-böyük, zəngin-kasıb, sərbəst və ya kölə, hər kəsin alnına yapışdırıldı, aləm aldadılan ruhları görsün deyə, şeytanın rəqəmi yazıldı - 666".

İslamda 99 rəqəmi müqəddəs hesab olunur. Çünki Allahın ərəb dilində 99 adı var. Xristian ənənəsinə görə isə bu ədəd Tanrının birliyinə işarə edən mələkləri ifadə edir.

Dinlərə görə 7 qat göy, 7 kainat, 7 qat cənnət, 7 qat cəhənnəm, yerüstü 7 qat, yeraltı 7 qat, 7 əsas rəng, Kəbənin ətrafında 7 dövr, və s. kimi özəlliklər var. Bu özəlliklər barədə bir azdan...

İslam dinində 7 mərtəbə var. Quranın ilk surəsi "Fatihə" 7 ayədir. İslam inanclarına görə, günahkarların gedəcəyi yeddi cəhənnəm var. Namaz qılarkən alın, iki əl, iki düz, iki ayağın baş barmaqları olmaq üzrə gövdənin yeddi əzasının yerə dəyməsi vacibdir. İslam inanclarına görə, ölünün sarındığı kəfən yeddi ərşin olmalıdır. Kəbədə Məscidi-həram deyilən məscidin yeddi minarəsi var. İslam inanclarına görə, qiyamət günü Mədinənin yeddi ayrı qapısı olacaq.

Yəhudilərdə müqəddəs şamdan 7 şamın birləşməsindən əmələ gəlir. Yəhudilər Qamış Bayramı dedikləri bayramda məbədlərdə toplanar, mehrabın ətrafında yeddi dəfə dolanarlar. Hindlilərdə, romalılarda, buddistlərdə də belə bir dini mərasim var. Müqəddəs saydıqları bir obyektin ətrafında yeddi dəfə dolanarlar.

Həyatını rəqəmlərə həsr edən Pifaqor rəqəmləri Tanrı sayır, riyazi qanunları dünya üzərindəki bütün sistemlərin təməli kimi qəbul edirdi. Onun fikrincə, hər şey riyaziyyat və rəqəmlərlə izah edilə bilərdi. Rəqəmləri həyatının mənasına çevirən Pifaqor 1 rəqəmini İlahi güc kimi qəbul edir, 10 rəqəminin isə İlahi ilə boşluğun və ya yoxluğun mükəmməl bir qarışığını ifadə etdiyini iddia edirdi. Pifaqor bununla kifayətlənmir, kainatdakı bəzi anlayışların qarşılığını rəqəmlərlə ifadə edirdi. Onun fikrincə, hər şey bir rəqəmlə müəyyənləşdirilə bilər. Məsələn, 5 - rəngin, 6 - soyuğun, 7 - sağlığın, 8 - sevginin rəqəmidir.

**Nəhs rəqəmə olan nifrət inkişaf etmiş xalqlarda da varmış**

Bu arada vacib detal kimi xatırladaq ki, 11 sentyabr terrorundan sonra dünyada 11 rəqəmi ilə bağlı da araşdırma aparılıb və onu heç də xoş olmayan rəqəmlər sırasına qatıblar. Məlum olub ki, bu rəqəmdə həqiqətən də bir çox gizli məqamlar kəsişib. Terror aktlarının törədildiyi gün - 11 sentyabr. Həmin gün ilin 254-cü günüdür, cəmi 11 (Numerologiya qaydalarına əsasən 254=2+5+4=11). "Əgər bu cür arifmetik hərəkəti ayın tarixində də etsək (9-cu ayın 11-i), onda cəm yenə də 11 olar: yəni, 9+11=9+2=11. Onu da qeyd edək ki, sentyabrın 11-dən ilin sonuna kimi 111 gün qalır. Daha sonra hind maqları aviareyslərin nömrələrini öyrəniblər. Dünya ticarət mərkəzinin birinci binasıyla toqquşan təyyarə reysinin nömrəsi 11 idi. Həmin təyyarədə 92 sərnişin olub: 92=9+2=11. İkinci təyyarədə isə 65 nəfər olub: 65=6+5 - yenə 11 rəqəmi alınır".

Bəzi inanclara görə, 13 ölüm rəqəmidir. İngiltərədə binalarda 13 saylı mənzil, kinoteatrlarda 13 saylı kreslo olmur. Əgər bir qonaqlığa 13 adam gəlibsə, mütləq 14-cü kürsünü də qoyur, ona maneken otuzdurur, qarşısına hətta yemək-içmək də qoyurlar. Almaniya, Avstriya və Skandinaviya ölkələrinə məxsus hava yolları şirkətləreninin təyyarələrində 13 saylı kreslo olmur. Amma alimlər bu qorxunu xurafat sayır və deyilənlərə inanmır.

❑ **Sevinc TELMANQIZI**

# Avtomobil sənayesində inqilab gözlənilir



## Elektriklə işləyən avtomobil dövrü nə zaman başlayacaq?

**Dünyanın ən böyük avtomobil bazarına sahib olan Çin yanacaqla işləyən avtomobillərin istehsalının və satışının ləğvi barədə düşünür. Çin hökuməti Fransa və Böyük Britaniyanın yolu ilə gedərək 2040-cı ilədək yanacaqla işləyən avtomobillərin satışını qadağan etmək niyyətindədir.**

Tianjində keçirilən beynəlxalq avtomobil forumunda çıxış edən Çinin sənaye nazirinin müavini Sin Quobin bildirib ki, bu addım ölkənin avtomobil sənayesində köklü dəyişikliklərə səbəb olacaq. Nazir müavini istehsalçıları ənənəvi avtomobillərin enerjiyə qənaət səviyyəsini artırmağa və təmiz enerji ilə işləyən nəqliyyat vasitələri sənayesini inkişaf etdirməyə çağırıb.

Görünən odur ki, alternativ yanacaqla işləyən avtomobillərin kütləvi istehsalı heç də xəyal deyil və təxminən 20 il sonra bu, reallığa çevriləcək. Yanacağı xaricdən idxal edən ölkə kimi bu məsələdə ən maraqlı tərəf də məhz Çindir. Bu gündən avtomobil istehsalçıları qarşısında belə bir prioritet müəyyənləşdirən Çin hökuməti alternativ enerji ilə çalışan avtomobil bazarında da öz yerini tutmağa çalışır.

Digər tərəfdən, Çin və Yaponiya bu məsələdə nə qədər maraqlı olsa da, dünyanın enerji bazarında mühüm yer tutan, iqtisadi siyasətini məhz bunun üzərində quran, eləcə də dünya siyasətində enerji resursları hesabına dəyişiklik etməyə qadir olan dövlətlər bu prosesin əleyhinə gedərək vaxtı uzatmağa çalışırlar. Alternativ enerji ilə çalışan avtomobillərin kütləvi istehsalı artıq dünyanın enerji balansında benzinin, dolayısı ilə neftin liderliyini əlindən alır.

**"Yeni Müsavat"a açıqlamasında bu məsələni şərh edən iqtisadçı ekspert Vüqar Bayramov bildirdi ki, alternativ enerji mənbələrindən istifadə, o cümlədən avtomobillərdə alternativ yanacağın istifadə edilməsi artıq dünyada yayılmış bir praktikadır:** "Bu praktika bütün inkişaf etmiş ölkələrdə daha çox tətbiq olunur və benzinə, birbaşa neftə olan tələbin azalmasına gətirib çıxarır. Aparıcı şirkətlərin elektrik enerjisindən istifadə edən avtomobil istehsalını genişləndirməklə bağlı konkret strategiyası var. İnkişaf etmiş ölkələr də bu strategiyanı reallaşdırmağa çalışırlar. Bu proses benzinə olan tələbi azaldacaq. Benzinə olan tələb birbaşa avtomobil istehlakı ilə bağlıdır. Sözsüz ki, avtomobil istehsalında alternativ enerjiyə keçid mərhələli bir prosesdir. Elektrik enerjisindən istifadə edən avtomobillərin istehsalı artsa belə bunun daha qısa zamanda olması hədəflənmir. Çin bu prosesi 2040-ci ilə hədəfləyir. Ancaq Avropa ölkələri üçün hədəf daha tezdir. Bəzi Avropa ölkələri 2020-ci ilədək, bəziləri 2040-cı ilədək elektrik enerjisindən istifadə edən avtomobillərin sayını artırmağı prioritet olaraq müəyyən edib".

**İqtisadçının sözlərinə görə, dünya bazarında alternativ yanacaqla işləyən avtomobillərin dövrü başlasa, bu sahədə lider Yaponiya olacaq:** "Müxtəlif şirkətlərin elektrik enerjisi ilə çalışan avtomobil istehsalına diqqət yetirsək, güman olunur ki, məhz Yaponiyanın bu məsələdə dünya bazarında lider olmaq imkanları daha çoxdur: Yaponiyanın həm innovativ olaraq imkanları daha çoxdur. Həmçinin yapon şirkətləri avtomobil bazarında hazırda aparıcı şirkətlərdir. Avtomobillərin yanacaq sərfiyyatının azalması yapon şirkətləri üçün daha prioritetdir. Yaponiya benzin idxal edən ölkə olduğuna görə nəticə etibarilə alternativ mənbələrdən istifadə edən avtomobillərin istehsalı bu ölkə üçün daha vacibdir. Avtomobil istehsalı ilə bağlı sənaye inqilabı baş verəcəyi halda pncə olan ölkə Yaponiya olacaq".

**Ekspert onu da vurğuladı ki, avtomobil sənayesində alternativ enerjidən istifadə istiqamətindəki bu axtarışlar qarşıdakı illərdə neftin bahalaşma ehtimalını sıfıra endirir:** "Bir tərəfdən şist neft istehsalı, digər tərəfdən, elektrik enerjisindən istifadə edən avtomobillərin sayının artması neftin qiyməti ilə bağlı nikbin düşünməyə imkan vermir. Bəzi beynəlxalq qurumlar, o cümlədən ekspertlər 2020-ci ildən sonra neftin qiymətinin yüksələ biləcəyini istisna etmirlər. Ancaq qeyd etdiyimiz proseslər neftin qiymətinin yaxın illərdə artacağını deməyə əsas vermir. Ona görə də dünya bazarında mövcud olan tələb birmənalı şəkildə onu proqnozlaşdırmağa imkan verir ki, müəyyən müddətdən sonra, alternativ enerjidən istifadə edən avtomobillərin artması nəticəsində biz neftə olan tələbin kəskin şəkildə azalmasını müşahidə edə bilərik. Bu da son nəticəsində neftin qiymətində daha ciddi azalmalarla müşahidə edilə bilər. Əgər hər hansı siyasi hadisələr baş verməzsə, yaxın aylar üçün neftin qiymətinin 50 dollar intervalında qalacağı daha çox inandırıcıdır. OPEK ölkələri də 50 dollarlıq intervalı daha çox hədəfləyib. Ancaq alternativ enerji mənbələri 50 dollarlıq intervalın qorunub saxlanmasını xeyli dərəcədə çətinləşdirə bilər".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 187 (6801) 12 sentyabr 2017

# Bilik günü - bizdə və dünyada

## Bir çox ölkələrdə dərs ili sentyabrda başlamır, Yaponiyada isə şagirdlər bütün il boyu oxuyur...

**3 gündən sonra - sentyabrın 15-i yeni dərs ili başlanır. İllər öncə ölkədə tədris ili sentyabrın 1-də başlayıb, mayın 31-də yekunlaşıb. Sentyabrın 1-i həm də Azərbaycanda Bilik günü kimi qeyd edilirdi. Ancaq sonradan bu tarix dəyişildi və uzun illərdir ki, dərs ili sentyabrın 15-i başlayıb iyunun 15-də yekunlaşır.**



Bəs dünya ölkələrində dərs ili nə vaxt başlayır?

Demək olar, əksər ölkələrdə dərs ili sentyabrın 1-i başlayır. Məsələn, Fransa, İrlandiya, Belçika, Polşa, Çexiya, Estoniya, Litva, Macarıtan, Sloveniya, Rusiyada da dərs ili 1 sentyabrda və ya sentyabrın ilk bazar ertəsi günü başlayır. Slovakiyada isə yeni dərs ili bir gün sonra, yəni sentyabrın 2-də başlayır, çünki sentyabrın 1-də ölkədə milli bayram - Konstitusiya günü qeyd olunur. İngiltərədə yeni dərs ili sentyabrın ilk həftəsində başlayır və bir qayda olaraq iyulun ortalarında başa çatır. İstisna hal kimi yalnız Şotlandiyada dərslər avqustun ortalarından start götürür.

Böyük Britaniyada tədris ili 3 rübdən ibarətdir. Rüblər arasında bir həftəlik qısamüddətli tətillər nəzərdə tutulur. Məktəbə 4-5 yaşında gedir, 15-16 yaşında başa vururlar. Bütün məktəblərdə dərs günü səhər saat 9-da başlayır, 15-də başa çatır. Günün ikinci yarısında uşaqlar öz vaxtlarını idmana, dərnəklərdəki müxtəlif məşğələlərə həsr edə bilərlər. Avstriya, Vyana və Aşağı Avstriyada yeni tədris ili sentyabrın ilk bazar ertəsi, digər əyalətlərdə bir həftə sonra başlayır. Ölkədə belə bir ənənə var: ilk dərs günü həm şagirdlər, həm də valideynlər məktəbə milli paltarda gəlirlər.

Finlandiyada yeni dərs ili avqustun 15-də başlayır. Gündəliklər yoxdur, valideynlər ayda bir dəfə uşaqların təhsil uğurlarına dair bildiriş vərəqi alırlar. Finlandiyanın təhsil qanununa görə, dərs ili 188 gün davam edir və mayın 31-də başa çatır. İspaniyada isə dərs ili oktyabrın 1-i başlayır. Tədris ili üç rübdən ibarətdir və iyunun ortalarında başa çatır. Şagirdlərin bilikləri 1-10 balla qiymətləndirilir. İspaniyalı şagirdlərin gündəlikləri yoxdur. Ev tapşırıqlarına və lövhə qarşısında verilən cavablara görə də qiymətlər yazılmır. İspaniya məktəbliləri yay tətilində (iyunun 20 -dən), Pasxa bayramı şərəfinə bir həftə, Milad bayramında isə iki həftə ərzində istirahət edirlər.

Almaniyada uşaqlar məktəbə avqustun ortalarında və ya sentyabrın əvvəllərində göndərilir. İlk tədris ilində birinci sinfə gələn almaniyalı şagirdlər məktəbə "Birincinin torbası" ilə gəlirlər ki, valideynlər bu torbaya uşaqları üçün hədiyyə qoyurlar. Orada şirniyyat, dəftərxana ləvazimatı, kitab ola bilər. XIX əsrdə bu ənənə yenicə yarananda torbaya, məsələn, çəkmə də qoya bilərdilər. Yeri gəlmişkən, torbanı uşaqlar kağızdan yapışdıraraq özləri hazırlayırlar, valideynlər isə hədiyyə ilə doldururlar.

Kanadada da dərslər sentyabrın ilk çərşənbə axşamından sonra dövlət bayramı olan və yayın bitməsini simvolizə edən "Əmək günü"ndən sonra başlayır. Kanadada valideynlər uşaqları üçün tədris proqramını özləri seçə, zəruri hesab etdikləri hallarda isə müəllimləri evlərinə dəvət edə bilərlər. Qiymətləndirmə faizlərlə aparılır. Məsələn, 50-60 faiz "qaneedici", 65-75 faiz "yaxşı", 80-90 faiz "əla" deməkdir. Meksikada isə dərslər avqustun sonuncudan əvvəlki bazar ertəsi başlayır. Qonşu Rusiyada isə hamımıza tanış olan tədris ili mövcuddur: 1 sentyabr - 25 may. Dərs ili 4 rübdən ibarətdir.

Qeyd edək ki, Azərbaycanda da 2004-cü ilədək bu sistem mövcud olub. Yaponiyada isə şagirdlər il boyu oxuyurlar. Yaponiyalı şagirdlər üçün məktəbin qapıları aprelin 1-də açılır. Məhz həmin gün ölkə əhalisi üçün gənclik, gözəllik və yeni həyatın başlanması rəmzi olan sakura çiçəkləməyə başlayır. Bu ölkədə təhsil ili üç rübdən ibarətdir. Göründüyü kimi, yaponlarda bir neçə aylıq tətil mövcud deyil.

Hindistanda yeni dərs ili iyun ayında başlayır, mart ayında başa çatır. Burada uşaqlar I sinfə 4 yaşından gedirlər. Məktəblərin çoxunda tədris ingilis dilindədir. Buna görə də ölkə əhalisinin əksəriyyəti ingilis dilini yaxşı bilir. Uşaqlar həm dövlət, həm də özəl məktəblərə gedirlər. Hindistan məktəblərində yalnız kişilər dərs deyir. Riyaziyyat ən şərəfli fənn sayılır. Hər bir məktəbin öz xüsusi məktəbli forması var, uşağa baxdıqda onun hansı məktəbdə oxuduğu dərhal bəlli olur. Böyük tətillər Hindistanda ən isti aylarda - may və iyunda başlayır. Məşğələlər iyulun əvvəlində, istilər bir qədər səngiyəndə bərpa olunur.

ABŞ-da dərs ili adətən sentyabrın əvvəlində başlayıb, avqustun ikinci yarısında başa çatır. Bəzən isə dərslər sentyabrın sonunda, hətta oktyabrın əvvəlində də başlayır. Pakistanda isə dərs ili avqust ayında başlayıb, may ayında başa çatır. Burada qızlar ayrı, oğlanlar isə ayrı siniflərdə oxuyurlar.

❑ **Günel MANAFLI**

# Yay bitdi, tıxaclar başladı - nə etməli...

## Ekspertlər məsələnin həllini həm də vətəndaş məsuliyyətində görürlər...

**Yay və istirahət mövsümünün bitməsi ilə əlaqədar paytaxtda yenidən əhalinin sayı çoxalıb. Eyni zamanda yeni tədris ilinin başlanması ilə müxtəlif bölgələrdən minlərlə tələbə də Bakıya axın edib. Bu isə şəhərin yollarında avtomobil sıxlığının artmasına səbəb olub. Artıq bir neçə gündən sonra xüsusilə də günün pik saatlarında Bakı küçələrində yenidən uzun tıxaclar müşahidə ediləcək. Bəs bu halı az da olsa önləmək üçün hansı addımlar atılmalıdır?**



"Yeni Müsavat"a danışan **nəqliyyat üzrə ekspert Azər Allahverənov** bildirib ki, əslində tıxacların qarşısını almaq üçün şəhərdə tədbirlər görülür:

"Doğrudur ki, artıq tıxaclar dövrü geri qayıdır. Bu, həm tədris ilinin başlaması, həm də məzuniyyətdə olub, öz şəxsi avtomobilləri ilə bölgələrə gedən şəxslərin geri qayıtması ilə əlaqəlidir. Bu gün artıq şəhərdə maşınların sayının kifayət qədər çox olduğunu müşahidə edirik. Xüsusilə də şəhərin mərkəzi hissələrinə yaxın olan küçələrdə tıxaclar yaşanır. Düzdür, müəyyən işlər həyata keçirilir və çalışırlar ki, tıxacın qarşısını hansısa formada alsınlar. Bu inzibati addımların müəyyən müsbət effekti var. Ancaq bunun əksini də görürük. Məsələn, Azadlıq prospektində yerləşən 160 nömrəli məktəb şəhərin mərkəzinə yaxın ərazidədir və qarşısındakı yol da çox dardır. Tədris ili başlayan kimi dərhal həmin yolda nəqliyyat vasitələrinin hərəkəti çətinləşəcək. Çünki çox zaman sürücülər avtomobili yolun ikinci zolağında saxlayırlar və tıxac yaranır. Dövlət Yol Polisi bilirik ki, xüsusilə də qeyri-qanuni saxlama ilə bağlı müəyyən işlər həyata keçirir. Ancaq bir məsələ də var ki, bəzi hallarda evakuatorlar vasitəsilə nəqliyyat vasitələri elə ərazilərdən götürülür ki, heç buna ehtiyac olmur. Nəqliyyat vasitəsi uyğun yerdə saxlanılmayıbsa və piyadaların, avtomobillərin hərəkətinə mane yaratmırsa, sürücü, sadəcə olaraq, cərimələnməlidir. Yaxşı olar ki, şəhərdə ikinci zolaqlı yollarda saxlanan avtomobillərin qarşısı alınsın. Həmçinin şəhərdə post-patrul xidməti ekipajının sayı da o qədər çox deyil ki, hər məktəbin yanında dayansınlar. Bu da bir növ problem yaradır. Düşünürəm ki, əhalinin özü ilə də maarifləndirmə işi aparmaq lazımdır. Xüsusilə də uşaqlarını məktəbə gətirən valideynlərlə iş aparılmalıdır ki, idarə etdikləri nəqliyyat vasitələri ilə problem yaratmasınlar. Digər tərəfdən, şəhərin planında da müəyyən dəyişiklik edilməsi düşünülür. Bəzi tədris mərkəzlərinin köçürülməsi, küçələrdə genişləndirmə işləri nəzərdə tutulub. Məsələn, Səməd Vurğun küçəsində genişləndirmə işləri aparıldı ki, bu da müsbət nəticə verdi. Hesab edirəm ki, bu kimi işlər davamlı olacaq. Onu nəzərə alaq ki, 1 milyon 400 mindən çox nəqliyyat vasitəsinin təqribən 1 milyonu Bakı şəhərindədir. Bu isə sözsüz ki, tıxac problemini yaşadır. Dünyanın iri şəhərlərində də belədir, sadəcə olaraq, bununla müvafiq qaydada mübarizə aparmaq lazımdır".

Ekspert onu da qeyd edib ki, bu gündən Bakı Nəqliyyat Agentliyi tərəfindən yaradılan alo141.az portalı da fəaliyyətə başlayıb. Bu portal vasitəsilə sürücülər yollardakı vəziyyətlə bağlı da informasiya ala bilərlər.

**Digər nəqliyyat eksperti İlqar Hüseynov isə fərqli fikirdədir. Ekspert qəzetimizə açıqlamasında bildirib ki, artıq tıxacın qarşısını almaqda gecikmişik:**

"Şərti olaraq düşünürük ki, tədris ili başladığı üçün tıxac dalğası yaranır. Xeyr, əslində bunun mövsümü bağlılığından başqa əlavə nüanslar da var. Lazımi tədbirlər əvvəlcədən işlənib hazırlanmalı idi. Bilməliyik ki, tıxaclar artıq Bakı şəhərində həll edilməsi mümkün olmayan vəziyyətə gəlib. Çünki bizim ictimai nəqliyyatda problemlərimiz var. Qədərindən artıq şirkətlər sərnişindaşımaya cəlb olunub. Nəticədə xeyli yükləmə yaranıb. Eyni zamanda tramvay, trolleybus kimi nəqliyyat vasitələri ləğv edildi və bunların alternativi gətirilmədi. Əksinə, prospektlər daraldı və tıxacların sayı artdı. Yəni biz mövsümü olaraq hansısa tədbirin görülməsini müşahidə etmirik. Hər hansı təkliflər paketi hazırlanmır. Məsələn, Yaponiyada belə bir təkliflər paketi var ki, həftənin tək günlərində dövlət nömrə nişanlarının sonu tək rəqəmlə bitən avtomobillər, cüt günlərində isə sonu cüt rəqəm olan maşınlar şəhərə daxil olurlar. Azərbaycanda isə heç bir qayda tətbiq olunmur. Tıxaclar azalırsa, bu, təbii olaraq baş verir. Hansısa qurumlar tərəfindən bunu nəzarətdə saxlayan aksiya və qanunvericilik aktları qətiyyən tətbiq olunmur. Bu istiqamətdə çox təkliflər vermək olar. Ancaq təəssüf ki, o da həllini tapmır. Bir zamanlar şəhərin girişlərində dayanacaqlar yaradıldı və rayon maşınları Bakıya buraxılmırdı. O, ümumiyyətlə, tənzimləmə metodu deyildi. Biz demişdik ki, bu metod işləməyəcək. Çünki dünyada da bu, özünü doğrultmayan vasitədir. Bakıya rayonlardan axın edənlər əsas taksi xidməti göstərənlərdir. Onların da əksəriyyətinin nömrəsi Bakı seriyasına aiddir. Yəni özünü doğrultmayan, absurd metod idi və doğrulmadı. Şəhərdə tıxacın olması həm də vətəndaş məsuliyyəti məsələsidir. Elə məsafələr var ki, ora vətəndaş avtomobilindən istifadə etmədən gedə bilər. Bizim millətimizin mentalitetində ictimai nəqliyyatdan istifadə zəif yer alıb. Hansısa formada xüsusilə gənclərin velosipeddən istifadəsini təşkil etmək lazımdır. Ən azı 5 ilə bunu inkişaf etdirə bilərik. Nəticədə tıxacların da qarşısı alınar. Sırf qanunvericiliklə bağlı burada nə isə yoxdur. Sadəcə olaraq, bu, təbii və insanların öhdəsinə buraxılmış məsələyə çevrilib".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 187 (6801) 12 sentyabr 2017

# İpoteka kreditini gecikdirənlərin evi məhkəməsiz müsadirə oluna bilər

**Banklar Assosiasiyası ipoteka qanunvericiliyinə dəyişiklik edilməsi barədə təkliflər hazırlayıb. Təkliflər qəbul ediləcəyi halda ipoteka krediti alan şəxs ödənişləri yubadarsa, o zaman bank məhkəməyə müraciət etmədən həmin vətəndaşın mənzilini hərraca çıxarıb satmaq hüququna malik olacaq.**

Virtualaz.org xəbər verir ki, bu haqda **iqtisadçı ekspert Vüqar Bayramov** facebook-da yazıb. O qeyd edib ki, həmin qaydaların yeni ipoteka müqavilələrinə şamil edilməsi və müqavilələrdə xüsusi bənd kimi yer alması nəzərdə tutulur. Başqa sözlə, əgər təkliflər keçsə, ipoteka krediti götürənlər banklarla bağlayacaqları müqavilələr üzrə üzərlərinə belə öhdəlik götürəcəklər ki, krediti vaxtında ödəməsələr aldıqları əmlakın məhkəmə qərarı olmadan satış çıxarılmasına razılıq verirlər.

Lakin qanunvericiliyə bu cür dəyişikliklərin edilməsi təklifi barədə Banklar Assosiasiyasının hər hansı açıqlaması yoxdur.

**Vüqar Bayramov isə bildirir ki, assosiasiyanın bu təklifləri hansı ölkənin və ya ölkələrin təcrübəsinə əsasən hazırladığını müəyyənləşdirmək çətindir. Amma dünya praktikasında məhkəmə qərarı olmadan əmlakın satışa çıxarılması praktikasına çox az rast gəlinir. Onun fikrincə, təkliflər qanun şəklini alarsa, ipoteka krediti götürüb ev alanlar krediti gecikdirərsə, illərlə ödəniş etdikləri mənzilin əllərindən alınıb satılması ilə üzləşəcəklər.**



"Məsələn, vətəndaş ipoteka krediti ilə mənzil alıb, bir neçə il ödəniş edib, amma sonradan ondan asılı olan və ya olmayan səbəblərdən ödənişdə yubanmalar var. Belə çıxır ki, banklar dərhal vətəndaşın mənzilini əlindən alıb satışa çıxaracaqlar. Əslində bu halda banklar əmlakı satışa çıxarmağa deyil, həmin şəxsə ödənişini bərpa üçün daha münasib şərtlər və ya müəyyən möhlət təklif etməyə çalışmalıdırlar" - iqtisadçı bildirir.

Ekspert qeyd edir ki, əmlakın taleyi məhkəmə qətnaməsinin çıxarılmasından sonra icra qərarlarına uyğun həll edilə bilər. Onun fikrincə, Banklar Assosiasiyasının təklifləri keçsə, ipoteka krediti götürmək istəyənlərin sayı kəskin azalacaq.

**Bank üzrə mütəxəssis Əkrəm Həsənov isə hesab edir ki, bu təkliflərin qəbulu mümkün deyil, çünki Azərbaycan Konstitusiyasına ziddir. Ekspertin virtualaz.org-a bildirdiyinə görə, burada söhbət yalnız ipoteka kreditlərindən deyil, ümumiyyətlə, ipotekadan gedir.**

"İpoteka krediti odur ki, vətəndaş ev almaq istəyir, bankdan kredit götürür və həmin evi girov qoyur. Burada söhbət ipoteka kreditlərindən deyil, ümumiyyətlə, ipotekadan gedir. İpoteka isə daşınmaz əmlakın və avtomobillərin girovudur. Siz krediti sahibkarlıq və ya digər məqsəd üçün götürməyinizdən asılı olmayaraq evinizi, torpağınızı, avtomobilinizi girov qoyursunuz. Bu o deməkdir ki, belə girov varsa, borcu qaytarmadıqda o, məhkəməsiz əlinizdən alınacaq. Bu, ilk növbədə Azərbaycan Konstitusiyasına ziddir. Konstitusiyaya görə, məhkəmə qərarı olmadan, heç kəs mülkiyyət hüququndan məhrum edilə bilməz. Mən bu təkliflərin parlamentdən keçməsinə və qanun halına salınmasına inanmıram", - deyə ekspert bildirir.

Ə. Həsənov qeyd edir ki, banklar onsuz da bu gün kütləvi şəkildə vətəndaşların və sahibkarların hüquqlarını pozurlar. İndi onlara belə bir imkan verilsə, vətəndaşların hüquqlarını pozacaq və kefləri istədiyini edəcəklər.

Ə. Həsənov bildirir ki, bu təklif Azərbaycan bank sistemində 10-15 il əvvəldən müzakirə edilib və heç vaxt dövlət səviyyəsində dəstək görməyib. İndi isə təkliflərin əhalinin bankların fəaliyyətindən narazı olduğu bir vaxtda yenidən gündəmə gətirilməsi absurddur.

## Gədəbəydə özünü güllələyən qadın öldü

**Bir neçə gün əvvəl Gədəbəydə özünü güllələyən qadın vəfat edib. Lent.az xəbər verir ki, rayonun Samanlıq kəndində ov tüfəngi ilə döş qəfəsinə atəş açan 1966-cı il təvəllüdlü Məmmədova Solmaz Ədil qızı Şəmkir rayon Mərkəzi Xəstəxanasında vəfat edib.**

S. Məmmədova ailəli olsa da, övladı olmayıb.

Faktla bağlı Gədəbəy Rayon Prokurorluğunda cinayət işi açılıb.

## Salyanda həbsxanada silahlı insident

**Salyanda silahlı insident qeydə alınıb. "Report" xəbər verir ki, hadisə rayonun Yenikənd kəndindəki 5 saylı cəzaçəkmə müəssisəsində baş verib. Həmin müəssisədə xidmət edən Ağstafa sakini, 19 yaşlı Əyyam Mamay oğlu Əyyublu odlu silahdan açılan atəş nəticəsində güllə yarası alaraq Salyan Mərkəzi Rayon Xəstəxanasına çatdırılıb. Yaralı dərhal əməliyyat olunub. Onun vəziyyətinin ağır olduğu bildirilir.**

İlkin məlumata görə, insident yaralı ilə xidmət yoldaşı arasında mübahisə zəminində baş verib.

Faktla bağlı araşdırma aparılır.

## Həbsdə olan polkovnikə yeni cinayət işi açıldı - dələduzluq

**Özünü Fövqəladə Hallar Nazirliyinin (FHN) polkovniki kimi təqdim edərək, onlarla vətəndaşdan işə düzəltmək adı ilə külli miqdarda pul alan şəxsin cinayət işi üzrə növbəti məhkəmə prosesi təxirə düşüb.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Rahib Salmanovun sədrliyi ilə keçirilən məhkəmə prosesinin təxirə düşməsinə səbəb Əlövsət Məhərrəmov barəsində yeni cinayət işinin açılmasıdır.

Hakim bildirib ki, Əlövsət Məhərrəmov barəsində eyni əməllərə görə cinayət işi açılıb və o, Nəsimi Rayon Məhkəməsinə aparılıb.

Bu səbəbdən də məhkəmə təxirə salınıb. Növbəti məhkəmə prosesi sentyabrın 12-nə təyin edilib. İş üzrə şahid olan şəxslər məhkəməyə məcburi gətiriləcək.

Bildirək ki, 2015-ci ilin fevral ayında həbs edilən Əlövsət Məhərrəmov özünü FHN polkovniki kimi təqdim etsə də o, əslində "Azərbaycan Dəmir Yolları" QSC-nin Bakı Dəmir Yolu Qovşağı Mülki Müdafiə Qərargahının rəisi vəzifəsində çalışıb. Onun həbsindən sonra "Azərbaycan Dəmir Yolları" QSC rəhbərliyinin göstərişi ilə adıçəkilən qərargah ləğv edilib.

Onun vətəndaşları aldatması halları isə 2014-cü ilin sonlarında edilən çoxsaylı şikayətlərdən sonra məlum olub. Ə.Məhərrəmov ötən ilin fevralında həbs edilib.

Onun barəsində Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə cinayət işi açılıb. Nəsimi Rayon Məhkəməsində Ə.Məhərrəmov barəsində 2 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Sonradan həbs-qətimkan tədbirinin müddəti uzadılıb.

Bu iş üzrə zərərçəkmişlərin sayının 90 nəfərə yaxın olduğu bildirilir.

❑ **İlkin MURADOV**

## Sabirabadda mikroavtobus aşdı- iki nəfər ölü, 10 yaralı var

**Sabirabad rayonunda mikroavtobusun aşması nəticəsində iki nəfər ölüb, 10 nəfər xəsarət alıb. APA-nın Mil-Muğan bürosunun xəbərinə görə, 1949-cu il təvəllüdlü Baxşıyev Xələf Əsgəralı oğlunun idarə etdiyi "Mercedes" markalı mikroavtobus radar dirəyinə dəyərək aşıb.**

Hadisə nəticəsində Sabirabad rayon sakini, 20 yaşlı Abbasova Gülzar Sakit qızı və 1946-cı il təvəllüdlü Zərbəliey Teymur Xanhüseyn oğlu ölüb.

Sürücü və mikroavtobusda olan sərnişinlər - 1986-cı il təvəllüdlü Amil Əhmədov, 1968-ci il təvəllüdlü Şəhla Abbasova, 1992-ci il təvəllüdlü Çimnaz Rəhmətova, 1957-ci il təvəllüdlü Böyükkişi Ağayev, 1963-cü il təvəllüdlü Zeynəb Novruzova, 1988-ci il təvəllüdlü Şakir Həsən oğlu Hüseynov, 1992-ci il təvəllüdlü Mahir Həsən oğlu Hüseynov, 1991-ci il təvəllüdlü Kamran Ələkbərov, 19974-cü il təvəllüdlü Bəylər Quluzadə xəsarət alıblar.

Xəsarət alanlar Sabirabad Mərkəzi Rayon Xəstəxanasına yerləşdiriliblər.

Onlardan 4-nün vəziyyəti ağır olduğu üçün Bakıdakı xəstəxanalara yola salınıblar.

## Azərbaycanda inanılmaz sevgi cinayəti

### Eşqə düşən 50 yaşlı kişi sevgilisini və onun atasını öldürdü

**Abşeron rayonunda ata və qızının öldürülməsi hadisəsinin təfərrüatları məlum olub. Lent.az-ın əldə etdiyi məlumata görə, Bakı-Şamaxı yolunun Sulutəpədən keçən hissəsində Müşfiq qəsəbə sakinləri -1953-cü il təvəllüdlü Əsədov Allahverdi Bədirxan oğlu və onun qızı, 1979-cu il təvəllüdlü Əsədova Samirə Allahverdi qızını bıçaqlayaraq öldürən Sahib Hacıyev avtomobil ustası olub.**

Araşdırmalar zamanı məlum olub ki, ailəli olan 50 yaşlı Sahib Hacıyev özündən 12 yaş kiçik Samirə ilə bir neçə il əvvəl tanış olub və onlar arasında sevgi münasibəti yaranıb. Qeyri-rəsmi nikahda yaşayan cütlük arasında münasibətlər bir müddət əvvəl pozulub. Samirənin başqa şəxslə görüşdüyünü öyrənən Sahib ona dəfələrlə zəng vursa da, buna cavab ala bilməyib. Nəhayət, Samirə Əsədova sevgilisinə başqa şəxslə də görüşə biləcəyini, onu belə qəbul etməsini söyləyib. Lakin Sahib qadının bu sözlərini qəbul etməyib və onu öldürməyi qərara alıb. Ardıcıl telefon zənglərinə cavab ala bilməyən 50 yaşlı kişi Samirəni hər dəfə rayonlara yola salıb-gətirən atasını izləməyə başlayıb. O, taksi sürücüsü olan Allahverdi Əsədovun Sulutəpə dairəsinin yaxınlığında qızını gözlədiyini müəyyən edəndən sonra Samirənin gəlməyini gözləyib. 38 yaşlı qadın atasının idarə etdiyi "VAZ 2107" markalı avtomobilə minən kimi Sahib idarə etdiyi "Mercedes"lə həmin maşını arxadan vurub. Nə baş verdiyini anlamağa çalışan Samirə ilə atası maşından düşüb. Bu zaman Sahib özü ilə gətirdiyi mətbəx bıçağı ilə Samirəyə 3 zərbə endirərək onu öldürüb. O, araya girən Allahverdi Əsədova da bir zərbə endirib və onun xəsarətinin ağır olduğunu görəndən sonra 64 yaşlı kişini də öldürüb.

Ətrafa xeyli insanın toplandığını görən Sahib Hacıyev maşınla evinə gedib və polisə zəng edərək onu aparmasını xahiş edib.

O da məlum olub ki, S.Hacıyev cinayəti törətməyə getməzdən əvvəl borclu olduğu şəxslərin pulunu verib. Bəlli olub ki, onun ailəsi də Sahibin Samirə ilə qeyri-rəsmi yaşamasından və onu dəlicəsinə sevməsindən məlumatlı olub.

Faktla bağlı başlanmış cinayət işinin istintaqı davam etdirilir.

DİN-in Baş Cinayət Axtarış İdarəsi, Abşeron RPİ və Kürdəmir RPŞ əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri ilə hadisəni münaqişə zəminində törətməkdə şübhəli bilinən Bakı şəhər sakini Sahib Hacıyev Müşfiq qəsəbəsi ərazisində tutulub.

**Elan**

**Səmədov Rəşid Məcid oğluna məxsus №J.N. 2955A Ağdaş rayon torpaq şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.**

***

**Çələbiyev Nəsib Çələbi oğluna məxsus №J.N. 2955A Ağdaş rayon torpaq şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.**

***

**Çələbiyev Maya Nəsib qızına məxsus №J.N. 2955A Ağdaş rayon torpaq şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.**

# “Çelsi”-”Qarabağ” qarşılaşması: əlavə sözə ehtiyac varmı?

**“Qarabağ” bu gün Çempionlar Liqasının qrup mərhələsinin ilk turunda Londonun “Çelsi” klubunun qonağı olacaq. Bakı vaxtilə saat 22:45-də ürəyimiz “Qarabağ”la döyünəcək... Oyunu Yunanıstan Futbol Federasiyasından olan hakimlər briqadası idarə edəcək. Anastasios Sidiropoulos baş hakim, Polixronis Kostaras, Lazaros Dimitriadisı yan xətt hakim təyin olunublar. Başqa zaman olsa, yunan hakimlərin təyinatına deyinərdirm, amma rəqib “Çelsi”dirsə, hakimin nə suçu?**

## Dirijor kimi 90 dəqiqə əl-qolla danışan, bağırıb-çağıran Konte və sakit təbiətli Qurban Qurbanov....





***

“Qarabağ” qrup mərhələsinə yüksələndə söz vermişdim ki, rəqiblərinə uduzarsa, məyus olmayacağam. Sözümün üstündə dururam, hətta bir-iki dostun qulağına bu gün hesabın neçə ola biləcəyini pıçıldamışam. Yəni psixoloji cəhətdən hazırlıq lazımdır ki, sonra klubun üzərinə çox düşməyək. Qurban Qurbanovun hələ bir neçə gün əvvəl verdiyi bir açıqlamadan da hiss olunurdu ki, bu məsələdə onun “beli” azarkeşlərə o qədər də bağlı deyil. Yəni demişdi ki, uduzsaq bizi tərifləd ikləri yaddan çıxacaq. Əslində, Qurban qardaşımız da bu cür psixoloji basqılara daha hazır olmalıdır. Azarkeşin bir sifəti olmur axı... Bu “Çelsi”nin də azarkeşlərinə aiddir, “Fənərbaxça”nın da, “Barselona”nın da... Oyun öncəsi Kontenin açıqlaması bu baxımdan diqqətəlayiqdir. “Böyük komandanın baş məşqçisi olan zaman səndən gözləntilər yüksək olur. Buna görə biz hər cür təzyiqə hazır olmalıyıq. Mənim təzyiq altında olmaqdan xoşum gəlir...”

***

İngiltərə Primyer-Liqasınıda “Çelsi”nin “Lester”lə keçirdiyi son oyuna əvvəldən axıra baxmalı oldum. “Avro-2016"dan sonra İtaliya millisini buraxıb ”Çelsi"yə keçən Antoni Kontenin klubu ilə Qurban Qurbanovun “Qarabağ”ını birgə meydanda təsəvvür edəndə...bir az ürpəndim. Üstəlik, çılğın bir baş məşqçi olan Kontenin dirijor kimi 90 dəqiqə əl-qolla danışması, bağırıb-çağırması ilə sakit təbiətli Qurbanı üz-üzə qoyanda...

Hələ belə hallarımız olacaq, Avropada təzə olmasaq da, Çempionlar Liqası başqa bir futbol aurasıdır axı...

***

“Çelsi” rəqib meydanında oynayırdı və qalib gəldi. Bir-iki oyunla “Çelsi”kimi nəhəng kluba qiymət vermək olmaz, amma məncə, “Çelsi” indi ingilis klubundan daha çox, ispan-italiyan “pitsa”sına oxşayır. Sesk Fabreqas, Pedro Rodriges, Alvaro Moratta, Sesar Aspilikueta və David Zappakosta...Sonuncu italiyalıdır, “Lester”lə oyunda debüt etdi... “Asan yeməli” klub deyil və “Qarabağ”ın işi çox çətin olacaq. Yəni güclü klublarla və heyətlərə oynayacağımızı bilirdik, amma elə hey yazırdıq ki, “Qarabağ” ÇL qrupunda oynamaq şansını qaçırmamalıdır, stadiona axışıb özümüzü öldürürdük ki, bircə qrupa düşək... İndi düşmüşük və canımıza qorxu alıb. Ümidimiz yalnız onadır ki, “Qarabağ” döyüşəcək. Yəni uduzsa belə, kişi kimi uduzacaq...Klubun baş məşqçisi də bizim istədiyimizi deyib.



**“Avropanın ən nüfuzlu klub turnirində çıxış etmək bizim böyük arzumuz idi. Biz yüksək rəqabət səviyyəsini püşkatma nəticəsində İngiltərə, İspaniya və İtaliyanın top-klubları ilə eyni qrupda düşdükdən dərhal sonra hiss etdik”. Qol.az-ın məlumatına görə, bu sözləri “Qarabağ”ın baş məşqçisi Qurban Qurbanov “Frans Press” agentliyinə açıqlamasında belə deyib. O, Çempionlar Liqasının qrup mərhələsindəki rəqiblərinin çox güclü və təcrübəli olduğunu bildirib:**






**“Amma bu, döyüşdən əvvəl təslim olacağımız demək deyil. Biz hər bir matçda dişimizlə, dırnağımızla vuruşmağa hazırıq”.**

**Q.Qurbanov “Çelsi”yə qarşı görüşün çətin keçəcəyini bildirib: “”Stemford Bric"dəki oyun bizim üçün çox çətin və ağır olacaq. Ancaq orada layiqincə çıxış edəcəyimizə ümid edirik".**

***

“Qarabağ”da transferlər edib və onları ilk dəfə bu gün meydanda görəcəyik. Klubun ulduz və ya ucuz futbolçu deyil, mövqeyində yaxşı oynayacaq oyunçu almaq siyasətinin yenə də uğurlu alınacağına ümid edək. Yeri gəlmişkən, Ansi Aqolinin bu gün oynamayacağı isə çox ciddi itkidir.

***

“Qarabağ”ın rəqibləri ilə qarşılaşma öncəsi hər dəfə bir oyunçu haqda geniş məlumat verməyə çalışacağıq. “Çelsi”ilə bir qrupa düşdüyümüz məlum olanda ilk oyunda Eden Hazard haqda yazmağa qərar vermişdim, onun zədəli olduğunu bilmədən...




Zədəsi səbəbindən uzun müddətdir “Çelsi”yə kömək edə bilməyən Eden Hazard “Lester”lə səfər matçında meydana çıxdı. Təəssüf ki, bu futbolçu yaşıl meydanlardan kənarda qaldığı üçün xeyli çəki alıb. Amma son 12 dəqiqədə oynasa da, hələ də çox təhlükəli olduğunu sübut edə bildi. Zənnimcə, “Çelsi”nin 10 nömrəsi olan Eden Hazard haqda yazmaq daha ədalətli olardı.

Onun “Qarabağ”la oyununda meydana çıxmasını çox arzu edərdim. Konte isə deyib ki, Hazardın formasını bərpa etməsi üçün zamana ehtiyacı var. Amma ümid edək ki, bu ulduz futbolçunu da bu gün meydanda görə biləcəyik.

***

Onu “Avro-2016"da Belçika yığmasındakı oyunundan yaxşı xatırlayıram. Belçika milli komandasının yarımmüdafiəçisi ”Avro-2016"da barəsində ən çox danışılan oyunçulardan biri idi. Onun haqqında hazırladığım materialdan bəzi seçmələri bu gün təqdim etməyin yeri var...

***

Eden Hazard 1991-ci ilin 7 yanvarında Belçikanın La-Luver şəhərində anadan olub. Onun ailəsi futbola yad deyil, əksinə, çox bağlı adamlardırlar. Müsəlman kökənli anası Katrin Belçikada futbol komandasında oynayıb. Atası Terri karyerasının əsas hissəsini Belçikanın ikinci divizionunda oynayan “Luveros” komandasında keçirib. Anası isə qadınlar üzrə birinci divizionda hücumçu mövqeyində oynayıb. Edenə üç aylıq hamilə olarkən isə komandadan ayrılıb. Atası kökənli belçikalı olsa da, anası mərakeşlidir. Bu səbəbdən də Edenin müsəlmanlığı qəbul etdiyi deyilir.

Eden hələ 4 yaşı olarkən yerli “Royyal Stad Braunia”da top qovmağa başlayıb. Klubun məşqçisi balaca Hazard xüsusi bacarıqlarına görə “anadan futbolçu kimi doğulub” deyibmiş. Burada səkkiz il oynayan Eden “Tyubiz”ə keçir. 14 yaşı olarkən Eden Fransanın “Lill” klubunun diqqətinə düşür. Valideynləri çox düşünmədən “Lill”dən gələn təklifi qəbul edirlər və qonşu Fransaya köçürlər.

Hazard iki il “Lill”in akademiyasında oynayıb və 2007-ci ildə-16 yaşında ilk dəfə əsas heyətdə meydana çıxıb. Komandada oynadığı ilk sezonda Hazard mövsümün ən yaxşı gənc futbolçusu seçilib. Bu, Fransa çempionatında ilk dəfə idi ki, ən yaxşı oyunçu mükafatını fransız olmayan biri alırdı. 2009-2010-cu il mövsümündə də Hazard iki il dalbadal yenə ən yaxşı oyunçu adına layiq görülür. 2011-ci ildə isə İtaliyanın nüfuzlu “Guerin Sportivo” jurnalının keçirdiyi rəy sorğusunda Eden “Avropanın ən yaxşı gənc futbolçusu” seçilir.

2012-ci ilin iyununda “Lill” də 8 illik karyerasını başa vuran Hazard İngiltərənin “Çelsi” klubuna transfer olunub. 21 yaşlı Eden “Çelsi” ilə 30 milyon funt-sterlinq *(bəzi mənbələrdə bu rəqəm o zaman 40 milyon göstərilir)* dəyərində transfer müqaviləsi imzalayır. Belçikalı ulduz Londona gələr-gəlməz İngiltərə Primyer-liqasının Leonel Messisi olmağa hazır olduğunu deyir.

12 avqustda “Çelsi”nin heyətində İngiltərə superkuboku matçında meydana çıxır. Amma onun debütü komanda üçün düşərli olmur, “Çelsi” “Mançestr Siti”yə uduzur. İkinci oyunda “Uiqan Atletik”lə qarşılaşmada belçikalı məhsuldar ötürmə edir və penalti qazanır. Artıq növbəti turda Eden qol hesabını da açır. “Çelsi”də keçirdiyi məhsuldar oyunlardan sonra “Daily Mail” qəzeti onu İngiltərə çempionatının məşhur legionerləri-Erik Kontana, Terri Anri və Denis Berkampla müqayisə edir.

Onun şəxsi həyatı barədə məlumat çox azdır, hay-küylü gecə həyatları barədə də eşidən olmayıb. Edenin xanımının adı Nataşadır, amma ruslarla heç bir əlaqəsi yox. Onun ailəsinin Skandinaviya ölkələrinin birindən Belçikaya köçdüyü söylənilir. Nataşanın onun həyatında ilk və hələ ki yeganə qadın olduğu deyilir. Onlar uşaqlıq illərindən tanışdılar və 14 yaşından görüşdükləri söylənilir. Nataşa Eden Fransaya köçdükdən sonra bir müddət Brüsseldə qalıb. Məktəbi bitirdikdən sonra o da Fransaya köçüb və cütlük ailə qurub.

Hazardın haqda ən çox dartışılan mövzu isə milliyyəti ilə bağlıdır. Onun müsəlman olduğu deyənlər bir faktdan daha möhkəm yapışırlar. Belə ki, o, 2013-cü ildə 17 yaşlılar arasında Avropa çempionatının Fələstin probleminə görə İsraildə keçirilməsinin əleyhinə olub. “Associated Press”in xəbərində deyilirdi ki, UEFA-ya bununla bağlı müraciəti imzalayan 62 futbolçu sırasında Hazardın və “Arsenal”ın oyunçusu Abu Diabinin adı olub. Eden həmin xəbərlərdə türk kimi göstərilirdi. Abu Diabinin isə kotdivuarlı müsəlman olduğu söylənilirdi. Qeyd olunurdu ki, nə Fransa, nə Belçika çempionatın final mərhələsinə vəsiqə qazanmadıqları halda belə bir müraciəti imzalamaları onların müsəlman kökənləri ilə bağlıdır.

***

Uğurlar, “Qarabağ”...

❑ **Nazim SABİROĞLU**

YENİ MÜSAVAT

Son səhifə

N 187 (6801) 12 sentyabr 2017

# Bu pilotun fotoları qalmaqala səbəb oldu



Braziliyalı pilot Daniel Centeno digər məslәkdaşları kimi işinə görə dünyanın dörd bir tərəfini təyyarə ilə qət edir. Açdığı İnstaqram hesabında 63 min təqibçisi olan Daneil Centeno bu hesabından getdiyi yerlərin şəkillərini paylaşmağı da yaddan çıxarmır. Amma Daniel Centenonun bəzi şəkilləri təqibçilərinin etirazına səbəb oldu. Uçuşa aid paylaşdığı şəkillərdəki hərəkətləri xüsusən də tez-tez uçuş edən sərnişinlərin etirazına səbəb olub. Belə ki, həmin fotolarda pilot şelfi çubuğunu kabindən çıxarır, ya da pəncərəni açıb, başını bayıra çıxararaq poza verir. Bu isə onun uçuşlarda təhlükəsizlik qaydalarını tamamilə pozduğunun göstəricisidir. Halbuki işin gerçəyi tamamən fərqlidir. Belə ki, təqibçilərndən aldığı etiraz dolu məktublardan sonra Centeno bildirib ki, sözügedən şəkillər fotoşop məhsuludur və uçuş zamanı belə şəkillər çəkmək, ümumiyyətlə, praktiki baxımdan mümkün deyil.



## Ağlayan uşağı sakitləşdirmək olmaz

Avstraliyada valideynlərin ağlayan uşaqlarına necə münasibət göstərməsi ilə bağlı bir araşdırma hazırlanıb. Alimlər valideynlərə tövsiyə edib ki, uşaqlar ağlamağa başlayandan bir müddət sonra onları sakitləşdirmək üçün hərəkətə keçsinlər. 7 aydan 6 yaşa qədər olan 326 uşaq üzərində aparılan araşdırmanın nəticələrinə görə, ata-analar ağlayan uşaqlarını nə qədər gec susdursalar, bir o qədər uğurlu nəticə əldə edirlər. Bunun adına "nəzarətli ağlama" deyilir. Belə ki, valideynlər uşaq ağlayandan sonra gözləmə müddətini hər dəfə artırır və onların öz-özünə sakitləşmə vərdişi qazanırlar. Araşdırmanın rəhbəri Anna Price deyib: "Ata-analar uşaq ağlamağa başlayandan sonra bir gecə 2 dəqiqə, növbəti gecə 5 dəqiqə müdaxilə etmədən gözləməyi öyrənsinlər. Bu, uşağa ziyan deyil. Amma valideynlər uşaq ağlayan kimi onun qapısını bağlayıb, onunla maraqlanmırmış kimi etməsin. Hərdən otaqlarına gedib, nə etdiyi ilə maraqlansın. Bu halda uşaq da, ana da sağlam bir gecə keçirə bilər".

# Kilsədəki müqəddəs suyu konyakla əvəzlədilər

Fransanın Şato-Şalon kəndində naməlum şəxslər kilsədəki müqəddəs suyu konyakla əvəz ediblər. Lenta.ru saytının xəbərinə görə, insident avqust ayının sonunda baş versə də, bu haqda ancaq ötən cümə günü məlum olub. Turistlər kilsəyə daxil olanda spirtli içki qoxusunu hiss ediblər. Onlar bələdçidən bu qoxunun mənbəyi haqda soruşublar. Turistlərin əsas sualı da belə olub ki, bu, yerli adət sayılırmı?

Yerli hakimiyyət orqanları şəxsi araşdırma apararaq müəyyən ediblər ki, içində müqəddəs su olan qaba bir litr konyak boşaldılıb. Kilsədə təhlükəsizlik xidməti yoxdur. Bu baxımdan da baş verənləri dərhal fərq etmək mümkün olmayıb. "Bu, məni güldürdü. Hesab edirəm ki, bunu edənlərin yumor hissi olduqca güclüdür və onlar adət-ənənələrdən hansısa formada qopmaq istəyirlər". Bunu da Şato-Şalon meri Kristian Vuilyem deyib. Onun fikrincə, bu zarafat çoxlarını güldürüb və olduqca xoşməramlı olub.

İçi konyakla doldurulan qablar yenidən təmizlənib və tərkibinə müqəddəs su tökülüb. Bu insidenti törədənlərin kimliyi isə hələ də müəyyənləşməyib.



## Ana ölən oğlunun ürəyini daşıyan adamı qucaqlayıb və...

Bir ananın bəlkə də ən çətin anlarından biridir bu. Margaret Valsechinin oğlu 23 il əvvəl dünyasını dəyişib. Bu zaman oğlunun ürəyi ürək xəstəsi olan Bobby Dohertiyə köçürülüb. Ana 26 yaşındaki oğlu Stephenin ürəyi ilə həyata qayıdan Bobby Doherti ilə bir araya gəlib. Oğlunun ürəyini daşıyan Dohertini qucaqlayan ana mətbuata deyib ki, "bu, inanılmaz bir an olub". 26 yaşındaki Bobby Doherty dünyaya qüsurlu qəlblə gəlib. 5 ay boyunca ürək köçürməsi üçün növbədə gözləyib. Ana Margaretin cəsur qərarı sayəsində isə axtardığı ürəyi tapıb. Doherti isə deyib ki, ana Margeretlə görüşmədən əvvəl ürək transplantasiyası gözləyirmiş kimi gərgin olub: "Özümü günahkar hiss etmişdim. Çünki ölən oğlunun ürəyini götürmüşdüm".

## Qoroskop (12 sentyabr)




**QOÇ** - Hər şey çıxardığınız qərarlardan asılıdır. Bədxislətli şəxslərin atmacalarına vaxt itirməkdənsə, mötəbər adamlarla işbirliyi yaradın. Unutmayın ki, karyeranız yüksəliş ərəfəsindədir.

**BUĞA** - İstəyib-istəməmənizdən asılı olmayaraq bu təqvimdə işgüzarlığınız artacaq. Bu baxımdan, iş prinsipinizdə bir çox yeniliklər nəzərə çarpacaq. Cəhd göstərsəniz, pul da qazanacaqsınız.

**ƏKİZLƏR** - Sentyabra böyük ümidlər bəslədiyiniz bəllidir. Amma bu ümidlərə qovuşmaq üçün cəhdlər də etməlisiniz. Özünüzə aludə olmaqdansa müştərək işlərə daha çox yer ayırın. Ruhdan düşməyin.

**XƏRÇƏNG** - Adətən sentyabrın bu təqvimi sizin üçün həmişə böyük əhəmiyyət kəsb edir. Bu səbəbdən də qarşınıza çıxan hər bir şansdan yararlanmalısınız. Sirlərinizi hər kəsə açmayın.

**ŞİR** - Təzə ayın təəssüratlarını, payız əhval-ruhiyyəsini bir kənara qoyun. Çünki qarşınızda duran çoxsaylı vəzifələrin öhdəsindən gəlməyiniz lazımdır. Bu gün oturaq işlərdən uzaq olmalısınız.

**QIZ** - Hələ ki sentyabrın gəlişi sizə xoş ovqat bəxş etməkdədir. Başqa cür də ola bilməz. Çünki indi "hakimiyyətdə" sizin bürcdür. Günorta yeni işlə bağlı sövdələşmə aparmaq olar.

**TƏRƏZİ** - Fəaliyyətinizdə müəyyən passivlik müşahidə olunacaq. Odur ki, gücünüz çatmayan işlərdən yapışmamalısınız. Nahardan sonra yaxın ünvanda yaşayan yaxınlarınıza baş çəkin.

**ƏQRƏB** - Məsləhətsiz hansısa addımı atmayın. Unutmayın ki, indi həyatınızın ən keşməkeşli dövrünü yaşamaqdasınız. Özünüzü itirməyin. Günün ikinci yarısında maraqlı hadisələr olacaq.

**OXATAN** - Təxminən saat 12-yə qədər gərgin situasiyalarla rastlaşacağınız gözlənilir. Əlxüsus da həmkarlarınızla təmkinli davranmalısınız. Nahardan sonra isə xoş ovqat qazanacaqsınız.

**OĞLAQ** - Daxili narahatçılığınız tədricən sәngiməyə başlayacaq. Üzləşdiyiniz proseslər sevincinizə səbəb olacaq. Ulduzlar təvəqqe edir ki, ağıllı adamların məsləhətlərini qulaqardına vurmayasınız.

**SUTÖKƏN** - İş və fəaliyyətlə bağlı olduqca düşərli gündür. Odur ki, əsas diqqətinizi bu istiqamətə yönəltməlisiniz. Münasibətlərdə isə ehtiyatlı olun. Böyük dəyişikliklər astanasındasınız.

**BALIQLAR** - Qarşılıqlı münasibətlərdə yaranan anlaşılmazlıqları bir kənara qoyub aktiv fəaliyyətə başlayın. Hər hansı mübahisə və konflikt yalnız zərərinizə ola bilər. Uzaq yola çıxmayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Ən ağır donuz



Çinin Xenan əyalətində çəkisi 750 kilo olan donuz aşkarlanıb. Ona "ölkənin ən iri canlısı" titulu verilib. Bu barədə "People's Daily Online" yazıb. Heyvanın uzunluğu 2,1 metr, hündürlüyü isə 1.5 metrdir. "Daily Mail"in yazdığına görə, ən böyük heyvan müsabiqəsini yerli fermer assosiasiyası təşkil edob. Donuzun Çjan adlı sahibi isə 3 ildir ki, onun qayğısına qalır. Sahibinin dediyinə görə, donuz çox yeyir və buna görə də ölçüləri inəyin ölçülərinə yaxınlaşıb. Xəbərdə qeyd olunur ki, ölkənin tarixindəki ən böyük donuz Ton Piq ləqəbli heyvan olub. Onun çəkisi 900 kilo olub. 4 yaşlı heyvan 2004-cü ildə ölüb.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100